RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 185 (9064) ÇƏRŞƏNBƏ AXŞAMI, 30 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



## Azərbaycan və Mərakeş xalqlarını bir-birinə dini, mədəni köklər bağlayır

### Mərakeşin Kralı Əlahəzrət VI Məhəmmədə



Əlahəzrət!

Əziz Qardaşım!

Azərbaycan Respublikası ilə Mərakeş Krallığı arasında əlamətdar tarix - diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə Sizi ürəkdən təbrik edir, qardaş xalqınıza ən xoş arzularımı çatdırmaqdan məmnunluq duyuram.

Biz dini və mədəni köklər ilə bir-birinə bağlı olan xalqlarımız arasındakı dostluq münasibətlərinə xüsusi əhəmiyyət veririk. Ötən otuz il ərzində dövlətlərarası əlaqələrimizin inkişafı, qarşılıqlı maraq doğuran əməkdaşlığımızın genişlənməsi bizi sevindirir. Eyni zamanda beynəlxalq təsisatlar, xüsusilə də Qoşulmama Hərəkatı və İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində əməkdaşlığımızı, ölkələrimizin qarşılıqlı dəstəyini yüksək qiymətləndirirəm.

Bu gün ölkələrimiz arasında əlaqələrin daha da inkişafı üçün yaxşı imkanlar vardır. İnanıram ki, qardaş xalqlarımızın rifahı naminə mövcud imkanlardan yararlanaraq birgə səylərimizlə dostluq münasibətlərimizi, həm ikitərəfli, həm də çoxtərəfli əsasda səmərəli əməkdaşlığımızı bundan sonra da dərinləşdirəcəyik.

Əlahəzrət, fürsətdən istifadə edərək Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Mərakeş xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2022-ci il*

---

## "Lisenziyalaşdırma sahəsində bəzi tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 dekabr tarixli 713 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 12, maddə 1467; 2018, № 4, maddə 687; 2019, № 3, maddə 405, № 5, maddələr 848, 852; 2020, № 6, maddə 698) ilə təsdiq edilmiş 4 nömrəli Əlavə - "Naxçıvan Muxtar Respublikasının icra hakimiyyəti orqanları tərəfindən lisenziya verilən fəaliyyət növlərinin siyahısı"nın 6-cı hissəsi aşağıdakı redaksiyada verilsin:

| | |
|---|---|
| 6. | Audiovizual media fəaliyyəti (yerüstü televiziya yayımçısı, yerüstü radio yayımçısı, peyk yayımı həyata keçirən platforma yayımçısı, peyk yayımı həyata keçirməyən platforma yayımçısı, sifarişli yayım xidməti provayderi, sadə platforma operatoru, universal platforma operatoru, multipleks operatoru) |

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

---

## "Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin təsdiq edilməsi haqqında" Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 96-VQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 fevral tarixli 795 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 2 (II kitab), maddə 259, № 3, maddə 460, № 4, maddə 670, № 6, maddələr 1025, 1063, № 7, maddə 1272, № 9, maddə 1468, № 10, maddələr 1614, 1638; 2017, № 2, maddələr 176, 202, № 3, maddə 351, № 4, maddələr 530, 537, № 6, maddə 1101, № 7, maddələr 1314, 1346, № 8, maddə 1521, № 9, maddə 1637, № 10, maddələr 1788, 1798, № 11, maddələr 2003, 2027, № 12 (I kitab), maddələr 2290, 2320; 2018, № 1, maddə 36, № 2, maddələr 198, 201, № 3, maddələr 418, 428, 443, 445, № 5, maddələr 914, 918, 926, 955, № 6, maddələr 1225, 1234, № 7 (I kitab), maddələr 1465, 1477, 1494, 1504, № 8, maddələr 1678, 1697, № 9, maddə 1840, № 11, maddələr 2244, 2256, 2273, 2289, № 12 (I kitab), maddələr 2541, 2566, 2573, 2610; 2019, № 1, maddələr 52, 68, № 3, maddə 426, № 4, maddələr 602, 630, № 5, maddələr 825, 846, 852, № 6, maddələr 1035, 1046, № 8, maddələr 1395, 1401, № 11, maddə 1700; 2020, № 3, maddələr 238, 240, 241, № 5, maddələr 540, 564, № 6, maddələr 691, 709, № 7, maddələr 863, 880, 884, № 8, maddələr 1027, 1032, № 9, maddə 1155, № 11, maddə 1359, № 12 (I kitab), maddə 1484; 2021, № 1, maddə 36, № 4, maddə 317, № 5, maddə 444, № 6 (I kitab), maddələr 565, 575, № 7, maddələr 724, 728, 741, № 10, maddə 1101, № 12, maddələr 1407, 1423; 2022, № 1, maddə 28, № 2, maddə 111, № 4, maddələr 313, 323, № 5, maddə 473; Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 1 avqust tarixli 1777 nömrəli və 4 avqust tarixli 1801 nömrəli fərmanları) 5.18-1-ci bəndinə "inzibati icraata başlamış" sözlərindən sonra "Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi," sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*



## Brüssel gündəliyini İlham Əliyev müəyyənləşdirir

### Azərbaycan Prezidenti bu dəfə də sülh danışıqları üçün Belçikaya aydın tezislərlə gedir

**Brüsseldə Azərbaycanla Ermənistan arasında sülh danışıqlarının növbəti dördüncü mərhələsi reallaşacaq. Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçiriləcək görüşdə İlham Əliyevlə N.Paşinyan baş verən proseslər və götürülən öhdəliklərin icra prosesi ilə bağlı danışıqlar aparacaqlar.**

Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib ki, Azərbaycan tərəfi bu görüşdə tərəflər arasında sülh sazişinin mətninin hazırlanması ilə bağlı işçi qrupunun təşkil edilməsində razılaşmanın əldə olunacağına ümid edir. Daha əvvəl Brüsseldə keçirilən görüşdə sərhədlərin delimitasiyası ilə bağlı komissiyanın yaradılması ilə bağlı razılıq əldə olunduğunu xatırladan Prezidentin köməkçisi onu da deyib ki, Azərbaycan və Ermənistanın baş nazirlərinin müavinləri də bu həftə Moskvada görüşəcəklər. Onlar nəqliyyat-kommunikasiya və delimitasiya ilə bağlı məsələləri müzakirə edəcəklər.

→ 3

## Regionda reallığı yalnız Azərbaycan yaradır

### Diplomatik mərkəzə çevrilən Şuşada keçirilən beynəlxalq konfransda səslənən fikirlər bunu bir daha təsdiqləyir

Konfrans iştirakçılarının işğaldan azad olunmuş ərazilərimizə səfəri Füzuli Beynəlxalq Hava Limanından başlayıb. Səfər çərçivəsində diplomatlar və hərbi attaşelər Füzuli şəhərində, eləcə də rayonun Dövlətyarlı kəndi ərazisində minatəmizləmə işləri ilə tanış olub, tapılmış minaların zərərsizləşdirilməsi prosesinə baxıblar. Sonra Şuşa şəhərinə yola düşən heyət Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu üzərində tikintisi başa çatmaqda olan tunelə yolüstü baxış keçiriblər.

Amma nümayəndələr arasında ABŞ və Fransa səfirləri yer almayıb. Həmin ölkələrin beynəlxalq konfransda yer almaması isə bu ölkələrin hələ də Azərbaycanın ərazi bütövlüyü ilə barışa bilmədiyini, gerçəkliyi qəbul etmədiyini göstərir.

Şuşada çıxışında bu məsələyə də toxunan Hikmət Hacıyev qeyd edib ki, konfransda dünyanın dörd bir tərəfindən nümayəndələr iştirak edirlər: "Hazırda Şuşada, demək olar ki, dünyanın bütün qitələrini təmsil edən dövlətlərdən nümayəndələr var. Məsələn, Avropa, Asiya, Latın Amerikası ölkələri - Qvatemala, Panama, Argentina, həmçinin Afrika ölkələri - Uqanda, Çad və digər ölkələr, eyni zamanda Avstraliya və Okeaniya regionu ölkələrinin təmsilçiləri bu gün buradadır. Bu iştirak onlar üçün də kifayət qədər maraqlıdır. Həqiqətən, Azərbaycan tərəfindən qısa müddətdə həyata keçirilən rekonstruksiya layihələrinə bizim diplomat dostlarımız və həmkarlarımız təəccüblərini gizlədə bilmirlər. Bütün bunların qısa dövr ərzində həyata keçirilməsi çox böyük maraqla qarşılanıb".

Prezidentin köməkçisi tədbirdə iştirak etməyən iki dövlətin - bunların ABŞ və Fransa olduğunu qeyd edib. O, həmin ölkələrin iştirak etməmək səbəbinin başa düşülmədiyini bildirib: Düzdür, Şuşa şəhərinin məhz o ölkələrin iştirakına ehtiyacı yoxdur. Gələ də bilərlər, gəlməyə də. Yəni ki, bundan sonra biz onları heç dəvət də etməyəcəyik".

→ 2

### ◆ BU BARƏDƏ DÜŞÜNƏK

## Düşmənə xidmət edən çəkilişlər

### Döyüş tapşırığını icra edən əsgərin mobil telefon nəyinə gərəkdir?!

Dördgünlük Aprel müharibəsini yada salaq!

Nə qədər adam sevinərək və lovğalanaraq zirehli texnikalarımızın dislokasiyasını əks etdirən süjetlər çəkib düşmənə "hədiyyə" etdilər!

Nə qədər "çoxbilmiş" canlı qüvvə aparan maşın kolonlarının şəklini çəkib sevinclə düşmənə göstərdi!

**Bununla da kimə və nəyə xidmət etdi?!**

**Qələbəyə töhfə verdi, yoxsa itkilərə səbəb oldu?!**

*Nə olar, gəlin ağılla düşünək, hadisələrə ayıq nəzərlərlə baxaq!*

*Əslində, bunlar maraqlı çəkilişlərdir, yoxsa xəyanət əməlləridir?!*

Heç kimə "xain" damğası vurmaq fikrində deyilik!

**Lakin etdiklərimiz buna aparırsa, əməllərimiz xəyanət əməllərindən fərqlənmirsə, belə hərəkətlərə başqa nə ad vermək olar?!**

Axı müharibə və mübarizə hələ tam başa çatmayıb!

Axı düşmənimiz arxalıdır, dostları, müdafiəçiləri çoxdur!

Axı dünyada hələ də ikili standartlar var və bizə olunanları görməyənlər erməniyə edilənləri göydə qamarlayıb dərhal əleyhimizə yönəldirlər!

*Belə qurum və təşkilatlara göydə axtardıqları "faktlar"ı əlimizlə təqdim edərək özümüzə qarşı çevirmələrinə şərait yaratmalıyıqmı?!*

**Bu bizə lazımdır?!**

→ 3

## "YAŞAT" Fondunun fəaliyyət istiqamətləri üzrə 64 milyon manatdan çox vəsait xərclənib

Azərbaycanın ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına dəstək fonduna ("YAŞAT" Fondu) indiyədək 74 milyon 499 min 713 manat 45 qəpik vəsait toplanıb.

Həmin vəsaitin 23 milyon 621 min 345 manat 32 qəpiyi fiziki şəxslər, 50 milyon 878 min 368 manat 13 qəpiyi isə hüquqi şəxslər tərəfindən ödənilib. AZƏRTAC xəbər verir ki, bunu "YAŞAT" Fondunun rəhbəri, Qarabağ qazisi Elvin Hüseynov deyib.

Onun sözlərinə görə, fondun fəaliyyət istiqamətləri üzrə xərclənən vəsait 64 milyon 550 min 299 manat 40 qəpik, qalıq məbləğ isə 9 milyon 949 min 414 manat 5 qəpikdir.



## Pambıqçı fermerlərə xeyir xəbər: "ağ qızıl"ın alış qiyməti növbəti dəfə artırıldı

→ 5

# Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda dəyişiklik edilməsi haqqında

**Azərbaycan Respublikasının Prezidentinin Fərmanı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 23 fevral tarixli 1256 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2017, № 2, maddə 200, № 6, maddə 1105, № 9, maddə 1638, № 11, maddə 1984; 2018, № 2, maddə 199, № 3, maddələr 415, 419, 429, № 5, maddələr 915, 927, № 7 (I kitab), maddə 1481, № 8, maddə 1698, № 11, maddələr 2242, 2289, № 12 (I kitab), maddələr 2566, 2597; 2019, № 1, maddə 82, № 2, maddə 213, № 3, maddə 426, № 4, maddələr 620, 630, 649, № 5, maddələr 819, 862; 2020, № 3, maddələr 238, 240, № 4, maddə 404, № 7, maddələr 864, 885, № 8, maddə 1041, № 9, maddə 1153; 2021, № 6 (I kitab), maddə 566, № 7, maddələr 724, 728, № 12, maddələr 1407, 1423; 2022, № 4, maddələr 313, 323) ilə təsdiq edilmiş "İnzibati xətalar haqqında işlərə baxmağa səlahiyyəti olan vəzifəli şəxslərin Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1. 2.1-ci, 2.5-ci və 2.9-cu bəndlərə "252" rəqəmlərindən əvvəl "244-1," rəqəmləri əlavə edilsin.
2. 4.1-ci bəndə "212.2," rəqəmlərindən sonra "244-1," rəqəmləri əlavə edilsin.
3. 4.3-cü bənddən "212.2 (iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda)," sözləri çıxarılsın və həmin bəndə "536-cı maddələrində" sözlərindən sonra ", habelə iş üzrə icraat Nazirliyin vəzifəli şəxsləri tərəfindən başlanıldıqda Məcəllənin 212.2 və 244-1-ci maddələrində" sözləri əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 29 avqust 2022-ci il*

# Regionda reallığı yalnız Azərbaycan yaradır

## Diplomatik mərkəzə çevrilən Şuşada keçirilən beynəlxalq konfransda səslənən fikirlər bunu bir daha təsdiqləyir

Avqustun 27-də Şuşada işğaldan azad edilmiş ərazilərdə bərpa və yenidənqurma sahəsində görülən işlər və planlar, post-münaqişə dövründə minatəmizləmə və şəhərsalma potensialının istifadə edilməsi və ümumi beynəlxalq əməkdaşlıq imkanlarına həsr olunmuş konfrans keçirildi.

Bu, mədəniyyət paytaxtımızda keçirilən növbəti beynəlxalq tədbir idi. Bu konfrans bir daha təsdiqlədi ki, Şuşa həm də diplomatik mərkəzə çevrilib. Konfransda çıxış edən Prezidentin köməkçisi, Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Şuşanın Cənubi Qafqazın ən mühüm şəhərlərindən birinə çevrildiyini, hazırda işğaldan azad olunmuş ərazilərdə bərpa və yenidənqurma layihələrinin sürətlə həyata keçirildiyini vurğuladı. Hikmət Hacıyev qeyd etdi ki, 30 illik işğal dövründə kəndlər və şəhərlər xarabalığa çevrilib, binalar dağıdılıb. 30 il sonra isə bölgəyə yenidən həyat qayıdıb. Prezidentin köməkçisi mina probleminə də toxunaraq bunun regionda bərpa işlərinin davam etdirilməsinə maneə yaratdığını söyləyib və vurğulayıb ki, Azərbaycan dünyanın minalarla ən çox çirkləndirilmiş ölkərindən biridir.

### Yenidənqurma və bərpa işləri sürətlə davam edir

Şuşa torpaqlarımız azad olunandan sonra bir çox mədəni, beynəlxalq konfransların mərkəzinə çevrilib. İki ilə yaxın müddətdə mədəniyyət paytaxtımızda çoxlu möhtəşəm tədbirlərə şahidlik etmişik. Eyni zamanda əksər konfranslarda xarici nümayəndələr də iştirak ediblər.

Budəfəki konfransda da ilk olaraq Şuşa şəhərində aparılan yenidənqurma və bərpa işləri haqqında qonaqlara ətraflı məlumat verilib. Prezidentin Şuşa rayonundakı xüsusi nümayəndəsi Aydın Kərimov qeyd edib ki, işğaldan azad olunduqdan sonra şəhərin tarixi, mədəni və strateji əhəmiyyətə malik ərazilərinin, abidələrinin bərpasına başlanılıb. Onun sözlərinə görə, abidələr erməni vandalizminə məruz qalıb, bir çoxu isə tamamilə dağıdılıb. Hazırda abidələrin bərpası və yenidən qurulması həyata keçirilir.

Aydın Kərimov bildirib ki, Şuşada dağıdılmış evlərin bərpası prosesinə də başlanılıb. Hazırda bu proses davam edir, yeni yaşayış məntəqələri inşa olunur və 2023-cü ilin sonunda evlər istifadəyə veriləcək. Daşaltı kəndinin böyük turizm potensialından danışan xüsusi nümayəndə deyib ki, kəndin baş planının hazırlanması işləri tamamlandıqdan sonra orada yenidənqurma işlərinə başlanılacaq.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov vurğulayıb ki, otuzillik işğal dövründə ermənilər regionun ekosisteminə ziyan vurublar, etnik və mədəni abidələr dağıdılıb. O bildirib ki, 54 min hektar ərazidə dağıntılar törədilib.

Emin Hüseynov mədəni irsin qorunub saxlanılmasının prioritet olduğunu, bu istiqamətdə Ağdamda Cümə və Qiyaslı məscidlərinin bərpa olunduğunu deyib.

### İki ölkədən başqa, bütün qitələri təmsil edən dövlətlərin nümayəndələri Şuşada olublar

Konfransda Azərbaycanda akkreditə olunmuş, eyni zamanda Ankarada, Tehranda və Moskvada fəaliyyət göstərən qeyri-rezident səfirlər, beynəlxalq diplomatik korpusun digər nümayəndələri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, Türkiyə Xarici İşlər Nazirliyinin və digər dövlət qurumlarının yüksəkvəzifəli şəxsləri də olmaqla 160-dan çox nümayəndə iştirak edib.

Nümayəndələr arasında Böyük Britaniya, Niderland, İsveç, Danimarka, Belçika, Almaniya, İtaliya, Müqəddəs Taxt-Tac, Macarıstan, Portuqaliya, Polşa, Çexiya, İran, Səudiyyə Ərəbistanı, Qətər, Bəhreyn, Çin, Filippin, Avstraliya, Yeni Zelandiya, İndoneziya, Kanada, Dominikan, Qvineya, Salvador, Meksika, Panama, Argentina, Braziliya, Qvatemala, Uqanda, Ruanda, Sudan, Çad, Kamerun, Namibiya, Mərakeş, Liviya və digər ölkələrin səfirləri, səfirliklərin əməkdaşları və hərbi attaşeləri yer alıblar.

Konfrans iştirakçılarının işğaldan azad olunmuş ərazilərimizə səfəri Füzuli Beynəlxalq Hava Limanından başlayıb. Səfər çərçivəsində diplomatlar və hərbi attaşelər Füzuli şəhərində, eləcə də rayonun Dövlətyarlı kəndi ərazisində minatəmizləmə işləri ilə tanış olub, tapılmış minaların zərərsizləşdirilməsi prosesinə baxıblar. Sonra Şuşa şəhərinə yola düşən heyət Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolu üzərində tikintisi başa çatmaqda olan tunelə yolüstü baxış keçiriblər.

Amma nümayəndələr arasında ABŞ və Fransa səfirləri yer almayıb. Həmin ölkələrin beynəlxalq konfransda yer almaması isə bu ölkələrin hələ də Azərbaycanın ərazi bütövlüyü ilə barışa bilmədiyini, gerçəkliyi qəbul etmədiyini göstərir.

Şuşada çıxışında bu məsələyə də toxunan Hikmət Hacıyev qeyd edib ki, konfransda dünyanın dörd bir tərəfindən nümayəndələr iştirak edirlər: "Hazırda Şuşada, demək olar ki, dünyanın bütün qitələrini təmsil edən dövlətlərdən nümayəndələr var. Məsələn, Avropa, Asiya, Latın Amerikası ölkələri - Qvatemala, Panama, Argentina, həmçinin Afrika ölkələri - Uqanda, Çad və digər ölkələr, eyni zamanda Avstraliya və Okeaniya regionu ölkələrinin təmsilçiləri bu gün buradadır. Bu iştirak onlar üçün də kifayət qədər maraqlıdır. Həqiqətən, Azərbaycan tərəfindən qısa müddətdə həyata keçirilən rekonstruksiya layihələrinə bizim diplomat dostlarımız və həmkarlarımız təəccüblərini gizlədə bilmirlər. Bütün bunların qısa dövr ərzində həyata keçirilməsi çox böyük maraqla qarşılanıb".

Prezidentin köməkçisi tədbirdə iştirak etməyən iki dövlətin - bunların ABŞ və Fransa olduğunu qeyd edib. O, həmin ölkələrin iştirak etməmək səbəbinin başa düşülmədiyini bildirib: Düzdür, Şuşa şəhərinin məhz o ölkələrin iştirakına ehtiyacı yoxdur. Gələ də bilərlər, gəlməyə də. Yəni ki, bundan sonra biz onları heç dəvət də etməyəcəyik".

### Reallıqla barışmaq lazımdır

Hikmət Hacıyev deyib ki, bu dövlətlərin nümayəndələrinin gəlməməsi, Minsk qrupu çərçivəsində və Minsk qrupunun yenidən bərpası və reanimasiyası haqqında bəzi bəyanatlarla çıxış etməsi onların 30 illik danışıqlar prosesi çərçivəsində hansı missiyanı həyata keçirməsini bir daha göstərir. Onlar Azərbaycanın ərazi bütövlüyünümü, yoxsa Şuşa şəhərində olan yenidənqurma və bərpa işlərinimi həzm edə bilmirlər, başa düşmək olmur. Ona görə də ilk növbədə onlar Azərbaycan xalqı qarşısında cavab verməlidirlər. Əgər onlar özlərini Azərbaycana dost ölkə hesab edirlərsə, bilməlidirlər ki, Şuşa Azərbaycan xalqı üçün böyük bir dəyərdir, Şuşa Azərbaycan xalqının göz bəbəyidir, hər bir Azərbaycan vətəndaşının qəlbində olan bir şəhərdir. Bura gəlməmələri 30 illik dövrdə onların hansı məqsədlərə qulluq etməsini və nələrdə maraqlı olduqlarını bir daha göstərir.

Məlumat üçün bildirək ki, ABŞ və Fransa səfirləri bundan əvvəl də Şuşada keçirilən beynəlxalq tədbirlərdə iştirak etməyiblər.

Hikmət Hacıyev bu məsələyə də münasibət bildirərək deyib ki, Fransa və ABŞ-ın Azərbaycandakı səfirləri Azərbaycan hökumətinin dəvətinə açıq şəkildə etinasızlıq göstəriblər: "Biz bunu ərazi bütövlüyümüzə qarşı hörmətsizlik kimi qəbul edirik. Fransa və ABŞ ATƏT-in Minsk qrupunun həmsədrləri kimi 30 il ərzində münaqişənin həllinə töhfə verməyiblər. Onlar 30 il Azərbaycanın zamanını itirdilər. Bu səfərə qoşulmamaqla onlar bir daha etinasızlıq nümayiş etdirdilər".

Bu gün artıq regionda reallığı Azərbaycanın yaratdığı heç kəsə sirr deyil. Torpaqlarımız işğal altında olarkən Azərbaycana qarşı hər hansısa etinasızlıq, ikili standartlar prinsipinin tətbiqi ciddi narazılığımıza səbəb olurdu. Nə qədər etiraz etsək də, nə Ermənistana, nə də ona dəstək verənlərə "gözün üstə qaşın var" deyən olmurdu.

Lakin bu gün Azzərbaycan qüdrətli dövlət kimi Cənubi Qafqazın lider ölkəsidir və öz gücünə Qarabağ münaqişəsini həll etdi. İndi diktəni Azərbaycan Prezidenti edir və kimsə ölkəmizlə təhdid dili ilə danışa bilməz.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# BMT-də akkreditə olunan xarici KİV nümayəndələri Ağdamda ermənilərin törətdiyi vəhşiliklərlə tanış olublar















BMT-də akkreditə olunan xarici KİV nümayəndələri Ermənistanın işğalından azad olunmuş Ağdam şəhərinə səfər ediblər.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, səfərin məqsədi xarici KİV nümayəndələrini Ermənistan silahlı qüvvələrinin işğal zamanı Ağdam şəhərində törətdiyi vəhşiliklərlə, cinayət izləri ilə, həmçinin Ağdam işğaldan azad edildikdən sonra Azərbaycan dövləti tərəfindən aparılan tikinti-quruculuq işləri ilə tanış etmək olub.

Jurnalistlər əvvəlcə Ağdam rayonunun Sarıcalı kəndinə gəliblər. Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin əməkdaşı tərəfindən qonaqlara ermənilərin işğal zamanı törətdikləri vəhşiliklər barədə məlumat verilib. Bildirilib ki, təkcə Sarıcalı kəndi deyil, digər yaşayış məntəqələri də erməni barbarlığına məruz qalıb.

Media nümayəndələrinə həmçinin Ermənistan tərəfindən ərazilərin minalarla çirkləndirilməsi, bu istiqamətdə aparılan təmizləmə işləri barədə məlumat verilib. Səfər iştirakçıları ərazidən tapılan minaların zərərsizləşdirilməsi prosesini izləyiblər.

Səfər çərçivəsində Ağdamda Ermənistan tərəfindən işğal dövründə dağıdılmış yaşayış binalarına, mülki obyektlərə, dini, mədəni və tarixi abidələrə, o cümlədən İmarət kompleksinə, Ağdam Cümə məscidinə, Şahbulaq qalasına, Dram teatrının binasının qalıqlarına və yerləyeksan edilmiş Şəhidlər xiyabanına baxış keçirilib.

Qonaqlara Ağdamın tarixi, indiki vəziyyəti, burada törədilən erməni faşizmi barədə ətraflı məlumat verilib. Bildirilib ki, Ermənistanın işğalına qədər Ağdam nəinki Qarabağ bölgəsinin, eləcə də respublikanın ən böyük, inkişaf etmiş şəhərlərindən idi. Burada sənaye və kənd təsərrüfatı inkişaf etmişdi. Ermənilər 1993-cü il iyulun 23-də Ağdamı işğal etdikdən sonra Ağdam şəhərində və rayonun kəndlərində evləri, ictimai binaları, məktəbləri, mədəniyyət ocaqlarını, uşaq bağçalarını, xəstəxanaları, istehsalat müəssisələrini talan edib, dağıdıb və yandırıblar. Ağdamda qəbiristanlıqlar, tarixi, mədəni abidələr də erməni vandalizminə məruz qalıb. Vaxtilə Azərbaycanın ən gözəl şəhərlərindən olan Ağdamın yerində indi talan edilərək viranəyə çevrilmiş xarabalıqlar qalıb.

Qonaqlar həmçinin Ağdamda həyata keçiriləcək quruculuq işləri barədə də ətraflı məlumatlandırılıblar.

Ağdam Sənaye Parkına gələn KİV nümayəndələri ərazidə salınmış mobil tipli şəhərciklə və burada işçilər üçün yaradılan şəraitlə tanış olublar. Onlara Ağdam Sənaye Parkında görülmüş işlər, burada sahibkarlıq fəaliyyətinin inkişafı üçün yaradılan işgüzar mühit barədə məlumat verilib. Bildirilib ki, Sənaye parkının prioritet istiqamətləri kimi tikinti materiallarının istehsalı, kənd təsərrüfatı məhsullarının qablaşdırılması, meyvə-tərəvəz konservləri, ət və süd məhsulları, yem, gübrə istehsalı və emalı, eyni zamanda xidmət sahələrinin, soyuducu kameraların və s. təşkili müəyyənləşdirilib.

## *BMT-də "Əlquds Alarabi" bürosunun rəhbəri:* "Ermənilər təkcə insanları öldürməyib, həm də tarixə qarşı soyqırım ediblər"



Qarabağda baş verənləri hər zaman yaxından görmək istəmişdim. Eşidirdik ki, ermənilər burada təkcə insanları yox, həm də tarixi öldürüb, tarixə qarşı soyqırım ediblər. Gəldik, bunları gözlərimizlə gördük.

AZƏRTAC-ın bölgə müxbiri xəbər verir ki, bunu Ağdamda jurnalistlərə müsahibəsində BMT-də "Əlquds Alarabi" bürosunun rəhbəri, Rutgers Universitetinin Yaxın Şərq Araşdırmaları Mərkəzinin professoru, Əl-Cəzirə, BBC, DW, "France 24" və digər media qurumlarının şərhçisi Abdelhamid Siyam deyib.

O, təkcə evlərin deyil, məscid və tarixi abidələrin də erməni vandalizminə məruz qaldığını bildirib: "Görünən odur ki, erməni vandalizmi sərhəd tanımır. Buradakı vəziyyəti ifadə etməyə söz tapa bilmirəm. Ermənilər bilirdilər ki, buranı tərk edəcəklər, ona görə heç bir tikinti işi aparmayıblar, ancaq dağıdıblar".

Abdelhamid Siyam BMT-də akkreditə olunan xarici KİV nümayəndələrinin Ağdama səfərini yüksək qiymətləndirərək deyib: "Biz, sadəcə, Amerikada fəaliyyət göstərən jurnalist deyilik. Eyni zamanda BMT-də fəaliyyət göstəririk. BMT jurnalistlərinin burada baş verənləri görməsi lazımdır. Çünki Qarabağ mövzusu aktualdır. Sadəcə, Azərbaycanın problemi deyil, dünyanın müzakirə mövzusudur. Bizim bunları görüb, həqiqəti bilməyimiz xüsusi əhəmiyyət daşıyır".

# Brüssel gündəliyini İlham Əliyev müəyyənləşdirir

## Azərbaycan Prezidenti bu dəfə də sülh danışıqları üçün Belçikaya aydın tezislərlə gedir

Əvvəli 1-ci səh.

### Azərbaycan öhdəliyini vaxtından əvvəl yerinə yetirir

Müharibədən sonra yaranmış reallıq göz önündədir - qalib tərəf kimi Azərbaycan sülh sazişinin imzalanması üçün əlindən gələni edir, 10 noyabr Bəyanatına əsasən üzərinə düşən öhdəlikləri hətta vaxtından əvvəl yerinə yetirir. Buna sübut kimi, 3 ilə tikilməsi nəzərdə tutulan yeni Laçın yolunun ilyarıma hazır olmasını göstərmək yetərlidir.

İlham Əliyev Vətən müharibəsində əldə edilən zəfərdən sonra da bölgədə sülh və əməkdaşlığa nail olmaq üçün regionla bağlı çətin geosiyasi maraqlar şəraitində diplomatik liderliyini, məharətini sərgiləməyə davam edir. Savaşdan sonra hərbi potensialını gündən-günə gücləndirən, sərhəddəki mövqelərini daha da möhkəmləndirən Azərbaycan Cənubi Qafqazda dayanıqlı sabitliyin bərqərar olması üçün addımlar atır. Lakin sülh sazişinin imzalanması hər iki tərəf üçün prioritet olsa da, məğlub ölkənin yeni iddiası səbəbindən proses yubanır. Brüssel görüşlərindən sonra məsələnin tezliklə həll olunacağı ehtimal edilsə də, Ermənistanda baş verən proseslər tam fərqli mənzərə yaradır.

Sülh danışıqlarına gəlincə isə, deyə bilərik ki, ötən il Avropa İttifaqı Şurasının təşəbbüsü ilə başlanan bu prosesdə müəyyən irəliləyişlər olub. Aİ Şurasının Prezidenti Şarl Mişelin təşəbbüsü ilə Brüsseldə ilk görüş 2021-ci il dekabr ayının 14-də keçirilib. Bu görüş zamanı Ermənistan-Azərbaycan dövlət sərhədinin delimitasiyası ilə bağlı hər iki tərəf müvəqqəti işçi qrupun yaradılması ilə bağlı razılığa gəliblər. Eyni zamanda kommunikasiya və nəqliyyat xətlərinin açılması məsələsi həmin vaxt geniş müzakirə olunub. Ermənistan tərəfi öz ərazisindən dəmir yolu xəttinin çəkilməsi ilə bağlı üzərinə düşən öhdəliyi təsdiq edib və bildirilib ki, dəmir yolunun çəkilişinə tezliklə start veriləcək. Burada gömrük və sərhəd nəzarət məsələlərinin qarşılıqlı prinsip əsasında təmin olunması barədə razılığa gəlinib.

İkinci görüş isə bu ilin aprel ayının 6-da reallaşdı. Birmənalı şəkildə vurğulanmalıdır ki, bu görüşlər və danışıqlar İlham Əliyevin postmünaqişə dövründə Brüssel sülh gündəliyinin tərkib hissəsi hesab olunur. Bu danışıqlardan sonra Şarl Mişel bəyanat səsləndirərək deyib ki, konkret məsələlərlə bağlı artıq lazımi razılaşmalar əldə olunub. Bunlardan birincisi Ermənistanla Azərbaycan arasında sərhədlərin delimitasiyası və demarkasiyası ilə bağlıdır. İkitərəfli sərhədlərin delimitasiyası və demarkasiyasının vacibliyini vurğulayan Aİ Prezidenti bu məqsədlə 26 noyabr 2021-ci il tarixli Soçi Bəyanatına uyğun olaraq, aprel ayının sonunadək birgə sərhəd komissiyasının təşkil edilməsinin razılaşdırıldığını qeyd etdi. Birgə sərhəd komissiyasının mandatına Ermənistan və Azərbaycan arasında ikitərəfli sərhədin delimitasiyası, sərhəd xətti boyunca və onun yaxınlığında sabit təhlükəsizlik vəziyyətinin təmin edilməsi daxil idi.



### Ermənistan sülh sazişini imzalamaqdan niyə yayınır?

Brüsseldə sülh danışıqlarının üçüncü mərhələsi mayın 22-də reallaşdı. Bu görüşdən sonra Şarl Mişel mətbuata açıqlama verdi. Müzakirələrin səmimi və məhsuldar olduğunu, bütün məsələlərin nəzərdən keçirildiyini deyən diplomat vurğuladı ki, humanitar məsələlər, o cümlədən minaların təmizlənməsi və saxlanılanların azad edilməsi ilə bağlı səylərlə əlaqədar ətraflı müzakirə aparılıb və itkin düşmüş insanların taleyinə toxunulub. Tərəflər razılığa gəliblər ki, sərhəd məsələləri ilə bağlı sərhəd komissiyalarının birinci birgə iclası dövlətlərarası sərhəddə yaxın günlərdə baş tutacaq. Bu iclasda sərhədin delimitasiyası və sabit vəziyyətin ən yaxşı şəkildə necə təmin edilməsi ilə bağlı bütün məsələlərə toxunulacaq. Kommunikasiya ilə əlaqədar liderlər nəqliyyat əlaqələrinin açılması istiqamətində işlərin davam etdirilməsi zərurəti üzərində razılığa gəliblər. Onlar Azərbaycanın qərb hissəsi ilə Naxçıvan və Azərbaycan ərazisindən Ermənistanın müxtəlif hissələri arasında tranzitləri, habelə hər iki ölkənin kommunikasiya infrastrukturu vasitəsilə beynəlxalq nəqliyyat daşımalarını tənzimləyəcək prinsiplər üzərində razılıq əldə ediblər. Onlar xüsusilə beynəlxalq daşımalar kontekstində sərhəd idarəetmə prinsipləri, təhlükəsizlik, eləcə də gömrük rüsumları və qaydaları barədə razılığa gəliblər və yaxın günlərdə baş nazirlərin müavinləri bu işi davam etdirəcəklər.

Sülh sazişinə gəlincə, liderlər Ermənistan ilə Azərbaycan arasında dövlətlərarası münasibətləri tənzimləyən gələcək sülh müqaviləsinə dair müzakirəni davam etdirmək barədə də razılığa gəliblər.

Əlavə edək ki, bu görüşdən öncə Nikol Paşinyan açıq şəkildə Qarabağın Azərbaycan torpağı olduğunu xalqına bəyan etməklə yanaşı, İlham Əliyevin irəli sürdüyü 5 prinsipdən ibarət təklifini də qəbul etdiyini bildirmişdi. Sonra sərhədlərin delimitasiyasına başlanılması üzrə işçi qrupu da yaradılmışdı. May ayında Azərbaycan-Ermənistan sərhəd komissiyasının birinci birgə iclası baş tutmuş və hər iki tərəfin nümayəndələrinin sərhəddə görüşməsi rəmzi xarakter daşımışdı. Bu, əlbəttə ki, prosesdə irəliləyişin olacağına dair mühüm mesaj idi. Lakin Ermənistanın son günlər mövcud olmayan "Dağlıq Qarabağ"a əsassız status iddiası, təxribatlar törətməsi demək olar ki, həllini tapmış prosesə əngəl yaradır. Rəsmi Bakı haqlı olaraq bəyan edir ki, məğlub ölkə belə sərsəm iddialarla çıxış etməklə yalnız özünə ziyan vurur.

Bu azmış kimi Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan torpaqlarında gizlənən separatçıların təxribatçı əməlləri səngimir. Növbəti belə təxribat nəticəsində isə Azərbaycan Ordusu bir hərbçisini itirdi. Əsgərimizin şəhid olması isə "Qisas" əməliyyatının başlanması zərurətini yaratdı. Zəfərin "Qisası" yenə də Ermənistan üçün acınacaqlı oldu.

Bundan sonra İlham Əliyev Laçın şəhəri və Zabux, Sus kəndlərində yaşayan ermənilərə Azərbaycan torpaqlarını tərk etmələri üçün avqustun 25-dək vaxt verdi. Ermənilər başa düşdülər ki, Azərbaycan Prezidentinin xəbərdarlıqlarına əməl etməsələr, nəticə ağır olacaq. Ona görə də ermənilər deyilən vaxtda Laçın şəhərini və iki kəndi boşaltdılar, Azərbaycan Ordusu ərazini nəzarətə götürdü, 30 ildən sonra Laçın şəhərində Azərbaycan bayrağı dalğalandı.

### Sülh müqaviləsi, sərhədlərin delimitasiyası, nəqliyyat məsələləri...

İndi Brüsseldə keçiriləcək gördüncü görüş məhz bu ərəfəyə təsadüf edir. İlham Əliyev bu görüşə də qalib komandan kimi yollanır. Eyni zamanda Azərbaycan Prezidenti Belçikaya aydın tezislərlə gedir.

Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevin sözlərinə görə, indiki halda gündəlikdə duran əsas məsələlər sülh müqaviləsi, sərhədlərin delimitasiyası, nəqliyyat məsələləri, həmçinin itkin düşmüş şəxslər və minalar problemləridir. Bunlara da ilk növbədə Ermənistan tərəfi cavab verməlidir.

Hikmət Hacıyev onu da vurğulayıb ki, Laçın şəhərinin mərkəzinin Azərbaycan Silahlı Qüvvələri tərəfindən nəzarətə götürülməsi, Zabux və Sus kəndlərində hərbçilərimizin yerləşməsi və bu ərazilərin ölkəmizin tam nəzarətinə keçməsi bir daha Prezident İlham Əliyevin nəyi nə zaman və necə edəcəyini yaxşı bildiyini təsdiqləyir. Azərbaycan Prezidenti siyasi, diplomatik, hərbi imkanlardan və ölkəmizin digər resurslarından istifadə edərək xalqımızı bu hədəflərə çatdırır.

Bir sözlə, dördüncü Brüssel danışıqlarında da İlham Əliyev bir daha Azərbaycanın sülh sazişinin imzalanma prosesinə hazır olduğunu, ölkəmizin üzərinə düşən bütün öhdəlikləri vaxtında yerinə yetirdiyini bəyan edəcək. Dünya bir daha məğlub Ermənistanın köhnə ənənələrinə sadiq qaldığına şahidlik etmiş olacaq.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

◆ BU BARƏDƏ DÜŞÜNƏK

# Düşmənə xidmət edən çəkilişlər

## Döyüş tapşırığını icra edən əsgərin mobil telefonu nəyinə gərəkdir?!

**Bütün dünya kimi, biz azərbaycanlılar da yeni bir xəstəliyə mübtəla olmuşuq!**

**COVID-19-u demirik!**

**Mobil telefon xəstəliyini nəzərdə tuturuq!**

*Hara getsək, özümüzlə əl telefonunu aparırıq...*

*Boş vaxt tapan kimi onu açıb qurdalayırıq...*

*Hər gün bu vərdiş-xəstəliyə saatlarla vaxtımızı "uf" demədən sərf edirik...*

Hələ bu harasıdır...

**Gözümüzə nə görünsə, telefonla şəklini çəkərək internetdəki müxtəlif platformalara yerləşdiririk!**

**Ağlımıza nə gəlsə, statusa çevirərək "dostlarımız"la paylaşırıq.**

Bəzən xoşumuza gəlməyən hər hansı bir məsələyə ağlımız kəsən tərzdə, fərqinə varmadan münasibət bildiririk və öz fikirlərimizi "mütləq həqiqət" hesab edirik!

Hərdən əsəbiləşəndə kimisə söyməkdən, təhqir etməkdən belə çəkinmirik!

Yazdıqlarımızı və çəkdiklərimizi, söydüklərimizi və aşağıladıqlarımızı hansısa bir azərbaycanlı xanımın da görə və oxuya biləcəyini ağlımızın ucundan belə keçirmirik!

**Əl boyda əl telefonunun bizə verdiyi imkandan kefimiz istəyən şəkildə, heç kəsə və heç nəyə məhəl qoymadan istifadə edirik!**

Axı niyə də olmasın!

Telefon da bizimdir, ona yüklənən kontur da, üstəlik, batareyasına doldurulan elektrik enerjisi də!

*Ölkəmizdə də maneəsiz və hüdudsuz söz, fikir azadlığı mövcuddur!*

*Keçmişdə deyildiyi kimi, "Ağanəzərəm, belə gəzərəm!"*

❖ ❖ ❖

**Bəli, demokratik ölkədə hər kəs səviyyəsinə uyğun düşünüb danışır, tərbiyəsinə uyğun söz və ifadə seçir, əqidə və məsləkinə müvafiq mövqe nümayiş etdirir!**

**Olsun!**

**Bu məsələdə tam sərbəstlikdir!**

AMMA...

*Bizim dediyimiz söz, çəkib sosial şəbəkəyə qoyduğumuz şəkil, sərgilədiyimiz mövqe milli maraqlara zidd gəlirsə, dövlətimizə zərər verə bilərsə, onda necə olsun?!*

*Belədə isə təkcə söz, fikir azadlığı ilə iş bitmir!*

**Lovğalanaraq çəkdiyimizin heç kəsin görmədiyini, dediyimizin kimsənin bilmədiyini zənn ediriksə və nəticədə düşmənə sirrimizi faş ediriksə, bizim şəkillərdən fakt kimi bəhrələnmələrinə imkan və şərait yaradırıqsa, onda biz kim oluruq və əməlimiz hansı əməl sayılır?!**

Dördgünlük Aprel müharibəsini yada salaq!

Nə qədər adam sevinərək və lovğalanaraq zirehli texnikalarımızın dislokasiyasını əks etdirən süjetlər çəkib düşmənə "hədiyyə" etdilər!



Nə qədər "çoxbilmiş" canlı qüvvə aparan maşın kolonlarının şəklini çəkib sevinclə düşmənə göstərdi!

**Bununla da kimə və nəyə xidmət etdi?!**

**Qələbəyə töhfə verdi, yoxsa itkilərə səbəb oldu?!**

*Nə olar, gəlin ağılla düşünək, hadisələrə ayıq nəzərlərlə baxaq!*

*Əslində, bunlar maraqlı çəkilişlərdir, yoxsa xəyanət əməlləridir?!*

Heç kimə "xain" damğası vurmaq fikrində deyilik!

**Lakin etdiklərimiz buna aparırsa, əməllərimiz xəyanət əməllərindən fərqlənmirsə, belə hərəkətlərə başqa nə ad vermək olar?!**

Axı müharibə və mübarizə hələ tam başa çatmayıb!

Axı düşmənimiz arxalıdır, dostları, müdafiəçiləri çoxdur!

Axı dünyada hələ də ikili standartlar var və bizə olunanları görməyənlər erməniyə edilənləri göydə qamarlayıb dərhal əleyhimizə yönəldirlər!

*Belə qurum və təşkilatlara göydə axtardıqları "faktlar"ı əlimizlə təqdim edərək özümüzə qarşı çevirmələrinə şərait yaratmalıyıqmı?!*

**Bu bizə lazımdır?!**

**Nə qədər demək, izah etmək, başa salmaq olar?**

Dinəndə hamı vətənpərvərlikdən danışır, torpaqların işğaldan azad edilməsindən qürur duyduğunu söyləyir...

Əməldə isə düşmən dəyirmanına su tökür!

Daha nə etmək lazımdır ki, bu xəstəlikdən sağalaq, həqiqi vətənpərvər kimi düşünərək hərəkət edək?!

❖ ❖ ❖

"Mülki əhali"ni başa düşdük...

Qaldı onların da bizi anlamaları!

Bəs hərbçilərə nə deyəsən?!

**Nə qədər təkrarlamaq, qadağan etmək olar ki, hərbi tapşırıqları icra edərkən mobil telefonlarla çəkilişlər aparmayın!**

**Nə qədər demək olar ki, gördüyünüzü çəkib sosial şəbəkəyə qoymayın, bunlar hərbi sirdir, belə etmək olmaz!**

Nə qədər cəzalandırmaq olar!

Yaxınlarda daha iki hərbçimiz telefonla çəkiliş apardıqları üçün ordudan xaric edildilər!

Çox gözəl, belə qəti və qətiyyətli olmaq lazımdır!

Yenidən belə halla rastlaşanda isə təəccüblənməyə bilmirsən!

Bu hamıya dərs olmadımı?!

Görünür, olmur!

**Odur ki, ordu rəhbərliyi daha qəti və təsir**li **addımlar atmalıdır!**

*Əsgər kazarmasında mobil telefon olmamalıdır!*

*Hərbi tapşırığı icraya gedən əsgər və zabitlər özləri ilə mobil telefonlar aparmamalıdırlar!*

*Heç bir hərbçi özbaşına nəyisə çəkib sosial şəbəkəyə qoymamalıdır!*

**Ən nəhayət, bütün bunlara nail olmaq üçün nizamnamədə zəruri dəyişikliklər aparılmalıdır!**

**Belə çəkiliş edənlər qanunla cəzalandırılmalıdırlar!**

Bunu vəziyyət tələb edir!

Bunu hələ başa çatmayan informasiya müharibəsi tələb edir!

Bunu müstəqil Azərbaycanın maraqları tələb edir!

İndi isə qəti söz Azərbaycan Ordusunun rəhbərliyinindir!

**Bəxtiyar SADIQOV**

## Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tədbirlər icra edilir



Azərbaycan Ordusunun mühəndis-istehkam bölmələri tərəfindən Laçın şəhəri, Zabux və Sus kəndlərində mühəndis təminatı üzrə tapşırıqlar icra edilir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin ərazilərin mina və partlamamış döyüş sursatlarından təmizlənməsi işləri yüksək peşəkarlıqla yerinə yetirilir.

Yaşayış məntəqələrində əsas səylər təhlükəsizlik qaydalarına ciddi riayət etməklə, kombinə edilərək kustar üsulla hazırlanan partlayıcıların və tələ minaların aşkarlanaraq zərərsizləşdirilməsinə yönəldilir.



# Xaricdəki erməni diasporu rəsmi İrəvanı hədələyir

### Hakimiyyət isə qanunlara dəyişikliklər etməklə onların nümayəndələrinin ölkəyə gəlişini əngəlləyir

Ermənistanın bir dövlət olaraq ayaq üstə qalmasında mühüm rol oynayan diaspor və lobbi qüvvələri ilə İrəvan hakimiyyəti arasında münasibətlərin əhəmiyyətli dərəcədə pisləşməsi davam etməkdədir. Əslində, İrəvanın region dövlətlərlə düşmənçilik siyasətinin həyata keçirilməsində diasporun da rolunun olduğu heç kimə sirr deyil. İndi görünən odur ki, mövcud hakimiyyət diasporun təsir dairəsindən uzaq olmağa çalışır.

Xatırladaq ki, Ermənistanın milli təhlükəsizlik xidməti "Vətəndaşlıq haqqında" qanuna əlavə və dəyişikliklərin edilməsi ilə bağlı qanun layihəsini ictimai müzakirəyə təqdim etmişdi. Layihədə "diaspor erməniləri"nin Ermənistan vətəndaşlığı almaları üçün prosedurların sərtləşdirilməsi nəzərdə tutulurdu. Xaricdə yaşayan ermənilər üçün vətəndaşlıq almaq prosedurunun sərtləşdirilməsinin əsas səbəbləri bölgədəki vəziyyət, Ermənistan vətəndaşlığı alan şəxslərin sonradan ölkəyə gəlməmələri və erməniliyin xeyrinə fəaliyyət göstərməmələridir.

Tehranda nəşr olunan "Araks" həftəlik qəzetinin baş redaktoru, erməni siyasi şərhçi Movses Keşişyan deyib ki, Ermənistandakı dəyişikliklər, bəzi xəstə addımlar, dövlət əleyhinə hərəkətlər diasporu parçalayır. Müəyyən bir çevrə var ki, bu cür məsələlərin diaspora ötürülməsinə çalışır. O, qeyd edib ki, erməni diasporunun iki problemi var, birincisi, diaspor ermənilərinin gündəlik həyatı, ikincisi, onların Ermənistan qarşısında öhdəlikləridir.

Ermənistanın üzləşdiyi çoxsaylı problemlərin meydana gəlməsində və getdikcə daha da dərinləşməsində əsas günahkar tərəflərdən biri kimi diaspor təşkilatları göstərilir. Ermənistanın istər daxili, istərsə də xarici siyasətinin müəyyən olunmasında həlledici təsir gücünə malik olan diaspor təşkilatlarının mövcud fəaliyyəti adıçəkilən ölkəni getdikcə daha böyük problemlərə düçar edir. Fəaliyyət göstərdiyi xarici ölkə ərazisində özünə rahat şərait yaradan, maddi çətinliklərlə qarşılaşmayan erməni diasporunu, əslində, Ermənistanın üzləşdiyi problemlər qətiyyən maraqlandırmır. Əksinə, diaspor Ermənistan hakimiyyətinin onun diktəsi ilə hərəkət etməsi üçün daim rəsmi İrəvanı böyük təzyiq altında saxlayır, tez-tez bu ölkəyə göndərdiyi maliyyə və digər yardımları kəsəcəyi ilə hədələyir. Elə bunun nəticəsidir ki, Ermənistanın taleyini həll edən qərarlar ölkə daxilində yox, onun sərhədlərindən kənarda qəbul olunur.

Ermənistanda fəaliyyət göstərən Regional Araşdırmalar Mərkəzinin ötən ilin yekunlarına dair hesabatında deyilir ki, bu ölkənin üç əsas problemindən heç biri öz həllini tapmamışdır. "4rd.am" saytının mərkəzin rəsmi nümayəndəsinə istinadla yaydığı məlumatlarda deyilir ki, Ermənistanda keçirilmiş etiraz aksiyalarında xalq zorakılığa məruz qalmışdır. Xarici siyasətdə də heç bir irəliləyiş olmayıb. Müharibədəki məğlubiyyətdən sonra "qüdrətli" erməni diasporunun artıq əvvəlki kimi bu və ya digər ölkənin parlamentində sözləri keçmir.

Ermənistanın iqtisadiyyatı isə olduqca ağır vəziyyətdədir. Əhalinin 36 faizi yoxsulluq həddindən də aşağı səviyyədə yaşayır. Bu isə 1 milyon 200 min nəfərdən artıq insan deməkdir. Nəzərə alsaq ki, məhz bu qədər də adam ölkəni tərk etmişdir, onda ölkə əhalisinin hamısının yoxsulluq hədindən aşağı səviyyədə yaşadığı aydın olur. Rəsmi statistikaya görə, uşaqların 40 faizi (hər 10 uşaqdan 4-ü) yoxsulluq içində yaşayır. Bu məsələ hakimiyyəti ciddi düşündürməlidir. Lakin hakimiyyət nümayəndələri öz bizneslərini inkişaf etdirməyi daha üstün tuturlar. Məsələn, Gümrü şəhərinin meri özü üçün hotellər və istirahət mərkəzləri tikdirir. Diasporun nümayəndəsi Narek Qasparyan rüşvətlə hakimiyyət nümayəndələrini ələ alaraq böyük bizneslə məşğul olur. Artıq diaspor Ermənistandan fayda götürdükdə onu müdafiə edir.

Bütün bunlar Ermənistanın üzləşdiyi problemlərin miqyasının daha da genişlənəcəyini, ölkənin təkcə sosial-iqtisadi yox, həm də siyasi müstəvidə böhrana düçar olacağını göstərir. Bu vəziyyətdə isə Ermənistanın bir dövlət olaraq məhvə məhkumluğu labüddür.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Azərbaycan Ordusunun maddi-texniki təminat məsələləri müzakirə olunub





Avqustun 29-da müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə nazir müavinləri, qoşun növləri komandanları, nazirliyin baş idarə, idarə və xidmət rəislərinin iştirakı ilə Maddi-Texniki Təminat Baş İdarəsində toplantı keçirilib.



AZƏRTAC xəbər verir ki, toplantıda Azərbaycan Ordusunun maddi-texniki təminat məsələləri müzakirə edilib.

Müdafiə nazirinə məruzə olunub ki, Azərbaycan Ordusunda şəxsi heyətin təminat məsələlərinin yüksək səviyyədə saxlanılması daim diqqət mərkəzindədir.

Bildirilib ki, qardaş Türkiyənin və digər qabaqcıl ölkələrin təcrübələrindən istifadə olunmaq şərtilə hərbi qulluqçuların xidmət şəraiti, ərazi relyefi və iqlim şəraitinə müvafiq olaraq təminat məsələlərinə dair təkliflər hazırlanıb.

Təkliflərə əsasən bütün qoşun növləri üzrə silahlanmaya yeni qəbul edilən texnika və avadanlıqların, eləcə də texniki vəsaitlərin daha da səmərəli istifadəsi nəzərdə tutulur. Eyni zamanda hərbi qulluqçuların ümumqoşun quru ərzaq payı normasının tərkibi zənginləşdirilir.

Qeyd olunub ki, yeni təkliflərin əsas məqsədi şəxsi heyətin bütün növ təminatını daha da yaxşılaşdırmaqdır.

Sonra hərbi qulluqçuların təminat növlərində yeni təklif olunan nümunələrə baxış keçirilib.

Müdafiə naziri Azərbaycan Ordusunun şəxsi heyətinin bütün təminat məsələlərinə nəzarətin gücləndirilməsi, hərbi qulluqçuların sosial-məişət şəraitinin daha da yaxşılaşdırılması ilə əlaqədar müvafiq göstərişlər verib.

General-polkovnik Z.Həsənov yeni təkliflərin nəzərə alınması ilə bağlı aidiyyəti şəxslər qarşısında tapşırıqlar qoyub.

# İrpendə hərbi əməliyyatlar zamanı ziyan görmüş akademik Zərifə Əliyeva adına 12 nömrəli orta məktəbin təmiri başa çatmaq üzrədir





Rusiya-Ukrayna müharibəsi zamanı İrpen şəhərində ciddi ziyan dəyən 12 nömrəli orta məktəbin əsaslı təmiri başa çatmaq üzrədir.

Bu barədə AZƏRTAC-a Azərbaycanın görkəmli elm xadimi, oftalmoloq-alim Zərifə Əliyeva adına 12 nömrəli tam orta məktəbin direktoru Valentina Antonenko məlumat verib. Direktorun sözlərinə görə, Azərbaycan Prezidenti İlham Əliyevin göstərişi ilə "SOCAR Energy Ukraine" şirkəti orta məktəbin təmirini üzərinə götürərək müvafiq işləri yeni tədris ilinə kimi çatdıracaq.

"Müharibə zamanı da Azərbaycan dövlətindən səmimi dostluq münasibəti gördük. Azərbaycan dövlətinə, xüsusilə Prezident İlham Əliyevə təşəkkürümü bildirmək istəyirəm ki, müharibə zamanı ciddi ziyan görən məktəbin təmirinə göstəriş verib. "SOCAR Energy Ukraine" şirkəti və Azərbaycanın Ukraynadakı səfirliyi bu işə yaxından dəstək verib. Azərbaycandakı dostlarımızın çətin gündə kömək edəcəklərinə inanırdım", - deyə Valentina Antonenko əlavə edib.

Təmir işləri zamanı orta məktəbin dam örtüyü tamamilə yenilənib, bir sıra sinif otaqları təmir edilib, pəncərə çərçivələri dəyişdirilib, kosmetik işləri həyata keçirilib.

# Qətərdə Leyla Əliyevanın kitabının təqdimatı keçirilib







Avqustun 28-də Azərbaycan Respublikasının Qətər Dövlətindəki səfirliyi və "Katara" Mədəniyyət Şəhərciyi Fondunun təşkilatçılığı ilə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın ərəb dilində nəşr olunmuş "Dünya yuxutək əriyir" şeirlər kitabının təqdimat mərasimi keçirilib.



Təqdimat mərasimində "Katara" Mədəniyyət Şəhərciyinin baş direktoru Khalid İbrahim Əl-Sulayti, Azərbaycan Respublikasının Qətər Dövlətindəki səfiri Rəşad İsmayılov, Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Türkiyə Respublikasının Qətər Dövlətindəki səfiri Mehmet Mustafa Göksu, həmçinin Qətərdə akkreditə olunan bir sıra ölkələrin səfirləri və diplomatik heyəti, bu ölkədə fəaliyyət göstərən media nümayəndələri, eyni zamanda Qətərdə yaşayan Azərbaycan icmasının nümayəndələri iştirak ediblər.

Səfirlikdən AZƏRTAC-a bildirilib ki, səfir Rəşad İsmayılov tədbirdə çıxış edərək Leyla Əliyeva poeziyasının dərin fəlsəfi çalarlarından, özünəməxsusluğundan söz açıb və "Dünya yuxutək əriyir" kitabının ərəbcə versiyasının ilk dəfə Qətərdə təqdim olunduğunu vurğulayıb. O, oxuculara təqdim olunan bu şeirlər toplusunda "Getmə, ana", "Hərənin öz sonu", "Qu quşu", "Kəpənək", "Hər birinin sonu var", "Pərvanə" və digər təsirli şeirlərin olduğunu qeyd edib.

R.İsmayılov həmçinin Leyla Əliyevanın təşəbbüsü ilə 2008-ci ildən başlayan "Xocalıya ədalət!" beynəlxalq təbliğat-təşviqat kampaniyası barədə də məlumat verərək, burada əsas məqsədin beynəlxalq birliyi Xocalı faciəsi haqqında ədalətli məlumatlandırmaq olduğunu qeyd edib və bu kampaniya çərçivəsində dünyanın bir çox ölkələrində həyata keçirilən ardıcıl və kompleks tədbirlərin məntiqi nəticəsi olaraq, yalan və saxtakarlıq üzərində qurulmuş erməni təbliğat maşınının iç üzünün ifşa olunduğunu diqqətə çatdırıb.

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva təqdimatı keçirilən kitabın məziyyətlərindən söz açıb. Bildirib ki, Leyla Əliyeva gənc olmasına baxmayaraq, çoxşaxəli istedada malikdir. O, gözəl, səmimi, romantik, incəruhlu şeirlərin müəllifi, maraqlı rəssamdır. Onun bir çox rəsmləri sərgilərdə nümayiş olunub. Leyla Əliyeva Azərbaycanın ictimai həyatında özünəməxsus yer tutur. Bunların hamısını birləşdirsək deyə bilərik ki, o, incə bir ürəyin sahibidir və bu, onun şeirlərində də hiss edilir. Qeyd edək ki, "Dünya yuxutək əriyir" kitabının dizaynında Leyla Əliyevanın müəllifi olduğu rəsm əsərlərindən nümunələr əks olunub.

Sonra Leyla Əliyevanın həyat və yaradıcılığına həsr olunmuş sənədli film nümayiş etdirilib.

"Katara" Mədəniyyət Şəhərciyində keçirilmiş Leyla Əliyevanın ərəb dilində nəşr olunmuş "Dünya yuxutək əriyir" şeirlər kitabının təqdimat mərasimi haqqında Qətərin ingilisdilli "Gulf Times" və "The Peninsula" qəzetlərində geniş məqalələr dərc edilib, həmçinin "Katara" Mədəniyyət Şəhərciyinin rəsmi saytında və sosial şəbəkələrində məlumatlar yerləşdirilib.

# Vətən müharibəsinin iştirakçıları ilə görüş

Dövlət Təhlükəsizliyi Xidmətində (DTX) Vətən müharibəsinin iştirakçıları ilə görüş keçirilib.



DTX-nin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, tədbir çərçivəsində Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasında Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət olunub.

Sonra iştirakçılar "Bilgəh" İstirahət Mərkəzində DTX-nin Mədəniyyət Mərkəzi tərəfindən hazırlanmış konsert proqramına baxıblar.

# Son sutkada Azərbaycanda COVID-19 infeksiyasına 132 yoluxma faktı qeydə alınıb

Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 132 yoluxma faktı qeydə alınıb, 148 nəfər müalicə olunaraq sağalıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, indiyədək ölkədə ümumilikdə 812 min 248 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 798 min 867 nəfər müalicə olunaraq sağalıb, 9 min 805 nəfər vəfat edib. Aktiv xəstə sayı 3 min 576 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 1 min 841, bu günə qədər isə ümumilikdə 7 milyon 147 min 186 test icra olunub.

# Avqustun 29-da Azərbaycanda COVID-19 əleyhinə vaksin vurulmayıb

Avqustun 29-da Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksin vurulmayıb.




Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, Azərbaycanda bu günə qədər vurulan vaksin dozalarının ümumi sayı 13 milyon 857 min 111, birinci mərhələ üzrə vurulan peyvənd dozalarının ümumi sayı 5 milyon 373 min 253, ikinci mərhələ üzrə 4 milyon 862 min 494, üç və daha çox doza vaksinlərin sayı 3 milyon 362 min 453, pozitiv nəticədən sonra "buster" doza vaksinlərin sayı 258 min 911-dir.

# Koronavirusla yaşam tərzi davam edir

## İnsanlar arasında qaydalara əməl etməyənlər də var

Koronavirus pandemiyası hələ də davam edir və yeni mutasiyalar xəstəliklə bağlı yenilikləri üzə çıxarır. Belə ki, daha öldürücü ştamların yerini hazırda daha yoluxucu növlər tutur. Bu da yoluxanların sayında artıma öz təsirini göstərir.



### İki ilə yaxın müddətdə 600 milyon insan bu virusa yoluxub

Amerikanın Cons Hopkins Universitetinin verdiyi son məlumata görə, dünya üzrə COVID-19 infeksiyasına yoluxmuş insanların sayı 600 milyon nəfərə çatıb. Pandemiyanın başlanğıcından bəri dünyada 6,48 milyon nəfərin isə virus səbəbindən həyatını itirdiyi bildirilir. İyirmi milyondan çox yoluxma halının qeydə alındığı ölkələrin siyahısına ABŞ, Hindistan, Braziliya, Fransa, Almaniya, Böyük Britaniya, İtaliya və Cənubi Koreya daxildir. Pandemiya dövründə dünyada COVID-19-a qarşı ümumilikdə 12 milyarddan çox doza vaksin vurulub.

Dünya ölkələri artan yoluxmalar nəticəsində müxtəlif vaxtlarda müxtəlif mübarizə tədbirlərini həyata keçiriblər. Çində mərhələli qapanmalar, ABŞ-də insanlara testlərin poçt xidməti vasitəsilə sürətli və pulsuz çatdırılması və s. bu yöndə həyata keçirilən tədbirlər içərisində yer alırdı. Müxtəlif ölkələr isə inkişaf etmiş ölkələrin təcrübələrindən faydalanaraq tədbirlər planı hazırlayırdılar. Son vaxtlar isə qlobal miqyasda kəskin karantin qaydalarına uyğun işlər həyata keçirilməsə də, əsasən təhlükənin müşahidə olunduğu təqdirdə qısamüddətli gücləndirilmiş mübarizəyə başlanılıb.

Hazırda isə əsas işlər vaksinlərlə bağlı görülür. İndi "Omikron" ştamının yoluxuculuğuna qarşı daha təsirli yeni hazırlanan peyvəndlərin istifadəsinə icazə gözlənilir. Yeni peyvəndlərin effektivliyi və ümumi təsirləri tam yoxlanıldıqdan sonra istifadəyə məqsədəuyğun hesab ediləcək.

### Mübarizə davam etdirilməlidir

Mütəxəssislər qeyd edirlər ki, ilk növbədə hər kəs yoluxmaların qarşısını almaq üçün simptomlar müşahidə edildiyi təqdirdə özünü təcrid etməli, ictimai yerlərdən, eləcə də nəqliyyatdan istifadədən yayınmalıdır. Yoluxmuş şəxs olduqca sürətli ötürülmə qabiliyyətinə malik olan virusu bir andaca bir neçə nəfərə yaya bilər. Ümumiyyətlə, hazırkı BA.4 və BA.5 altvarinatlarının əlamətləri qriplə eynilik təşkil etdiyindən onları fərqləndirmək də çətinləşir. Buna görə də əlamətlər hiss edildiyi zaman virusun "Omikron" olub-olmadığını yalnız testlə müəyyənləşdirmək mümkündür.

Ölkəmizdə yay fəslinin başladığı vaxtlarla müqayisədə yoluxanların sayında artım müşahidə edilir. Yoluxma hallarının bütün dünyada çoxaldığını vurğulayan mütəxəsssilər bu vəziyyəti bir neçə səbəblə izah edirlər. Hazırda insanlar arasında adiləşən virusa yoluxmalar zamanı qaydalara əməl edilmir, tədbirlərin yumşaldılması və ya ümumiyyətlə, aradan qaldırılması yoluxmaları artırıb, vaksinasiyanın tövsiyə edilən dozalarının tətbiq edilməməsi isə kütləvi immuniteti zəflədib. Bütün bunların fonunda payızda yoluxma daha da arta bilər. Bu səbəblə də peyvənd olunmaq və gigiyenik qaydaları gözləmək hər bir vətəndaşın öhdəliyi olmalıdır.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# REGİONLAR





# Pambıqçı fermerlərə xeyir xəbər: "ağ qızıl"ın alış qiyməti növbəti dəfə artırıldı

Fermerlərin maddi rifah halının yaxşılaşdırılması Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin daim diqqət mərkəzindədir. Prezidentin tapşırığına əsasən, pambıqçılığa dəstək verilməsi istiqamətində növbəti addım atılıb.

Pambıq istehsalı və emalı ilə məşğul olan şirkətlər Kənd Təsərrüfatı Nazirliyi ilə müzakirələr nəticəsində məhsul yığımı ərəfəsində pambığın alış qiymətinin artırılması barədə qərar qəbul ediblər.

Şirkətlər arasında əldə olunan razılaşmaya əsasən, pambığın növlər üzrə mövcud alış qiymətləri hər tona 50 manat olmaqla, 2022-ci ilin məhsulu üçün

1-ci növün qiyməti 750 manatdan 800 manata,

2-ci növün qiyməti 730 manatdan 780 manata,

3-cü növün qiyməti 690 manatdan 740 manata,

4-cü növün qiyməti 650 manatdan 700 manata qaldırılıb.

Bu qərar fermerlərin məhsul istehsalına həvəsləndirilməsi üçün qəbul olunub.

Qeyd edək ki, pambığın fermerlərdən alış qiyməti bu il ikinci dəfə artırılır. 2022-ci ilin yanvar ayında şirkətlər 2022-ci ilin məhsulu üçün alış qiymətlərini hər tona görə 50 manat qaldırmaq barədə qərar qəbul etmişdi.

Beləliklə, pambıqçı fermerlər bu il yetişdirdikləri məhsulun hər tonunu ötən ilə nisbətən 100 manat baha satacaq və xeyli əlavə qazanc əldə edəcəklər. Bu, Prezident İlham Əliyevin fermerlərə göstərdiyi qayğı və diqqətin növbəti təzahürüdür.

Qeyd edək ki, pambıqçılığın inkişafı dövlət tərəfindən dəstəklənir. Bu ildən tədarük məntəqələrinə təhvil verilən pambığın hər tonuna görə fermerlərə 170 manat məhsul subsidiyası ödəniləcək.

Bu il Azərbaycanda 100 min hektardan artıq sahədə pambıq əkilib. Gələn aydan respublikada kütləvi pambıq yığımına start veriləcək.

## Pambıqyığan kombaynlarda təhlükəsizlik qaydaları ilə bağlı təlim keçirilib

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən Salyan, Sabirabad, Neftçala və Biləsuvar rayonlarında pambıq yığımına hazırlıqla bağlı texniki təminatın mövcud vəziyyətinin monitorinqi aparılıb və "Pambıqyığan kombaynlarla işləyərkən təhlükəsizlik qaydaları" mövzusunda mexanizatorlar üçün təlim keçirilib.

Tədbirdə Bitkiçiliyin təşkili və monitorinqi şöbəsinin, Salyan, Sabirabad, Neftçala və Biləsuvar dövlət aqrar inkişaf mərkəzlərinin, "Aqroservis" ASC-nin yerli bölmələrinin əməkdaşları və pambıqçılıq şirkətlərinin mütəxəssisləri iştirak ediblər.

Monitorinqin və təlimin məqsədi cari ildə "Aqroservis" ASC-yə və pambıqçılıq şirkətlərinə məxsus pambıq yığımında və daşınmasında istifadəsi nəzərdə tutulan kənd təsərrüfatı texnikalarının mövcud vəziyyətinin müəyyən edilməsi, pambıqyığan kombaynlarla işləyərkən təhlükəsizlik qaydalarına əməl edilməsi, yanğın təhlükəsizliyinə qarşı müvafiq tədbirlərin görülməsi və bu sahədə mexanizatorların təlimatlandırılmasıdır.

Tədbir zamanı pambıqyığan kombaynlara baxış keçirilib və mexanizatorlara müvafiq tövsiyələr verilib.

Təlimlərin respublikanın digər pambıqçılıq rayonlarında da keçirilməsi nəzərdə tutulur.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***



## Şəhid ailələri, qazilər və müharibə iştirakçıları üçün həftəsonu istirahət təşkil olunub

Xaçmazda şəhid ailələri, qazilər və müharibə iştirakçıları üçün həftəsonu istirahət təşkil olunub. AZƏRTAC xəbər verir ki, Samur-Yalama Milli Parkının ərazisində təşkil olunan düşərgəyə rayon rəhbərliyi və hüquq-mühafizə orqanlarının nümayəndələri baş çəkiblər.



İştirakçılar gün ərzində birlikdə maraqlı vaxt keçirib, müxtəlif idman və stolüstü oyunlar üzrə yarışıblar.

Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayev Xaçmaz rayonunda şəhid ailələrinə, qazilərə və müharibə iştirakçılarına xüsusi diqqət göstərildiyini və belə tədbirlərin davamlı olacağını bildirib.

Şəhid ailələri, qazilər və müharibə iştirakçıları göstərilən yüksək diqqət və qayğıya görə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevaya minnətdarlıqlarını ifadə ediblər.

# Tovuzlular arxayınlaşmırlar

4-cü regional inkişaf proqramında qarşıya qoyulmuş tədbirlər və vəzifələr Tovuz rayonunda da ardıcıl həyata keçirilir. Bunu cari ilin birinci yarısının sosial-iqtisadi nəticələrində də görmək mümkündür.

Yarım il ərzində rayonda fəaliyyət göstərən müəssisə və təşkilatlar tərəfindən 201 milyon 917,7 min manatlıq məhsul istehsal edilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 3,6 faiz çoxdur. Bunun 37,1 faizi kənd təsərrüfatı, 9,3 faizi sənaye, 45,6 faizi ticarət, 5,4 faizi tikinti sahəsinin payına düşür. Adambaşına düşən ümumi məhsulun həcmində də artım müşahidə olunmuşdur. Belə ki, ötən il adambaşına düşən məhsul istehsalı 1096,4 manat olmuşdusa, bu il həmin rəqəm 1130,6 manata çatmışdır.

Dövlət tərəfindən aqrar sahəyə diqqətin, eləcə də bu sahədə çalışan təsərrüfat sahiblərinə edilən güzəşt və yardımların miqyasının artırılması kənd təsərrüfatının əsas istehsal sahələrindən biri olan bitkiçiliyin inkişafına təkan vermişdir. Ötən yarım il ərzində ailə-kəndli və ev təsərrüfatlarında əkin aparılan sahələrin həcmi 1668 hektar artırılaraq 17890 hektara çatdırılmışdır. Artım əsasən kartof və dənli bitkilərdə müşahidə olunmuşdur.




Rayonda heyvandarlığın inkişafı üçün də geniş imkanlar açılmışdır. Bu hesaba mövcud qaramalın təsərrüfat kateqoriyaları üzrə xüsusi çəkisi 1,3 faiz artmışdır. Eləcə də süd istehsalı 16289 tona, yumurta istehsalı 11 milyon 622 min ədədə çatmışdır.

Ötən müddət ərzində rayon sənayesi də irəliləmişdir. Belə ki, əvvəlki ilin eyni dövründəkindən faktiki qiymətlərlə 1 milyon 224,6 min manatlıq çox sənaye məhsulları istehsal edilmişdir. İstehsal edilmiş məhsulun 40 faizi dövlət, 60 faizi qeyri-dövlət sektorlarının payına düşmüşdür. Bu dövr tikinti sektorunda da irəliləyiş qeydə alınmışdır. Konkret rəqəmə gəldikdə, 6 ay ərzində əsas kapitala yönəldilmiş 12 milyon 243,2 min manatın 88,2 faizi tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunmuşdur.

Sahibkarlığın dəstəklənməsi, istehsal müəssisələrinin fəaliyyətinin bərpası, yeni müəssisələrin yaradılması və mövcud müəssisələrdə yeni iş yerlərinin açılması istiqamətində rayonda bir sıra tədbirlər görülmüşdür. Bunun sayəsində yarım ilə rayonda 90-a yaxın daimi iş yeri açılmışdır. Yeni açılan və əvvəlcədən fəaliyyət göstərən iş yerlərində əhalinin həyat səviyyəsinin yüksəldilməsini səciyyələndirən orta aylıq nominal əməkhaqqı 5 ay ərzində 517,8 manat olmuşdur ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 80,4 manat və ya 18,4 faiz çoxdur.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Naxçıvan MR-də meşə yanğınlarına qarşı etibarlı mühafizə sistemi qurulub

Muxtar respublikada ekoloji məsələlər prioritet istiqamət kimi diqqətdə saxlanılır, mövcud yaşıllıqların qorunması məqsədilə yanğından mühafizə tədbirlərinə ciddi əməl edilir, bu sahədə fəaliyyət gücləndirilir.

AZƏRTAC-ın Naxçıvan bürosu xəbər verir ki, bu tədbirlərin davamı olaraq muxtar respublikanın bir sıra bölgələrində baş verə biləcək potensial yanğın riskinə qarşı tədbirlər görülüb, ilkin müdaxilə üçün məntəqələr yaradılıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən, Ordubad rayonu ərazisindəki meşələr üçün Nürgüt kəndində, Şərur rayonundakı Qaraquş meşəsi üçün Tənənəm kəndində, Şahbuz rayonu ərazisindəki Biçənək meşə sahələri üçün Zəngəzur Milli Parkı ərazisində və Culfa rayonu ərazisindəki meşələr üçün Ləkətağ kəndində məntəqələr yaradılıb və müasir yanğınsöndürmə vasitələri ilə təchiz edilib.

Məntəqələrin hər biri motorlu su nasosu, 200 metr uzunluğunda 50 diametrlik yanğınsöndürmə şlanqı, 6 ədəd 20 litrlik su tutumu olan suçiləyici avadanlıqlarla təmin edilib. Bu avadanlıqlar həmin ərazilərdəki meşə və meşəətrafı sahələrdə baş verə biləcək yanğınların dərhal qarşısının alınmasına təminat verir.



## Xurşidbanu Natəvan bu dəfə Zaqatalada anılıb

Zaqatala rayon Heydər Əliyev Mərkəzində Xurşidbanu Natəvanın 190 illiyi münasibətilə "Məclisi-üns" adlı tədbir təşkil olunub.

Mərkəzin əməkdaşlarının, eləcə də rayonun Üçüncü Tala kənd tam orta məktəbinin müəllim və şagirdlərinin iştirak etdiyi tədbirdə şairin həyat və yaradıcılığı barədə məlumat verilib, əsərlərindən parçalar oxunub. Bu barədə AZƏRTAC-a Zaqatala rayon Heydər Əliyev Mərkəzinin direktoru Famil Rəhimov məlumat verib.

Tədbirdə bildirilib ki, Qarabağın sonuncu hakimi Mehdiqulu xan Cavanşirin qızı, Qarabağ xanlığının banisi İbrahimxəlil xanın nəvəsi olan Xurşidbanu Natəvan Azərbaycan ədəbiyyatı tarixində diqqətəlayiq yer tutan söz ustalarındandır. Xalq arasında Xan qızı adı ilə məşhur olan Natəvan zəngin irs qoyub gedib. Onun başçılıq etdiyi ədəbi məclis öz ətrafında dövrün qabaqcıl ziyalılarını toplayıb və Qarabağ ədəbi mühitinin inkişafına güclü təsir göstərib.

Sonda məktəblilərin hazırladığı "Xarıbülbül" rəqsi ifa olunub.

# Fermerə dövlətdən vacib dəstək

## Aqrar sığorta ərzaq təhlükəsizliyi təminatının mühüm şərtidir

**Hazırda bütün dünyada ərzaq təhlükəsizliyinin qlobal probleмə çevrilməsi məlum faktdır. Mütəxəssislər bunu bir neçə faktorla əlaqələndirirlər.**



Onların qənaətlərinə görə, birinci səbəb ötən əsrin sonlarından dünyada əhalinin daha sürətlə artmağa başlamasıdır. İkincisi, uzun illər torpaqdan düzgün istifadə edilməməsi sayəsində onun məhsuldarlığının aşağı düşməsi, üçüncüsü, iqlim dəyişikliyinin törətdiyi təbii fəlakətlərin kənd təsərrüfatına ciddi ziyan vurmasıdır. Dördüncü səbəb isə siyasi faktorlardan qaynaqlanan problemdir ki, bunu Rusiya-Ukrayna münaqişəsinin başlamasından sonra aydın şəkildə görmək mümkündür.

Bununla yanaşı, bir mühüm faktor da kənd təsərrüfatı məhsullarının bahalaşmasıdır. Belə ki, dünyada əhalinin sayının artması, insanların yaşam standartının yüksəlməsi ərzaq məhsullarına tələbatın artmasına səbəb olub. Tələbatın artması isə qiymətin yüksəlməsinə təsir göstərir ki, bu da dünyada alıcılıq qabiliyyəti aşağı olan əhalinin ərzaqla təminatında ciddi çətinliklər yaradır. Ərzağın bahalaşması hətta dünyada insanların normal qidalanmasını çətinləşdirib.

İndi bütün hökumətlər ərzaq təhlükəsizliyini təmin etmək üçün lazımi tədbirlər görür. Azərbaycan da istisna deyil. Ümumiyyətlə, ölkəmizdə son dövrlər aparılan aqrar islahatların əsas məqsədi ərzaq təhlükəizliyinə nail olmağı hədəfləyir. Məlum olduğu kimi, Azərbaycan kənd təsərrüfatı məhsullarından ən çox ərzaq buğdası idxal edir. Odur ki, idxaldan asılılığı aradan qaldırmaq üçün buğda əkən fermerlərə verilən dəstək ilbəil artırılır.

Yeri gəlmişkən qeyd edək ki, aqrar islahatlar sayəsində yerli istehsalda ciddi artım müşahidə olunur. Əvvəllər idxal edilən bir sıra məhsullar indi nəinki ölkəmizdə istehsal olunur, hətta onları bir çox hallarda ixrac da edirik. Hazırda daxili istehsal hesabına qoyun, mal, quş əti ilə özümüzü yüksək səviyyədə təmin edə bilirik. Süd və süd məhsulları ilə təminat isə 80 faizdən yuxarıdır. Meyvə və tərəvəzdə də daxili tələbatı ödəməklə bərabər, ixracatda da yüksək artıma nail olmuşuq.

Lakin bəzən də elə olur ki, quraqlıq, yağıntılar və digər təbiət hadisələri bu sahədə çalışan fermerlərə ziyan vurur. Bu, fermerləri çətin vəziyyətdə qoyur. O üzdən istehsalçılara ziyanlarının qarşılanması üçün etbarlı təminat lazımdır. Aqrar sığorta bu sahədə yeganə çıxış yoludur. Son dövrlər dövlətin ciddi dəstəyi sayəsində ölkəmizdə fermerlər əkin sahələrini, mal-qara və bitkiləri sığorta edə bilirlər. Sığortanın 50 faizinin dövlət tərəfindən ödənilməsi fermerlərə böyük stimul verir. Bunun nəticəsidir ki, kənd təsərrüfatında çalışanlar böyük həvəslə aqrar sığortaya müraciət edirlər.

Qeyd edək ki, əkin sahələrinə dəyən zərər iki mərhələdə müəyyənləşdirilir. Hadisədən dərhal sonra əkin ərazilərinə baxış keçirilir, sənədlərin uyğunluğu yoxlanılır, dəyən zərər ilkin olaraq qiymətləndirilir. Növbəti qiymətləndirmə isə biçindən əvvəl həyata keçirilir və əkin sahəsinə dəyən zərərin dəqiq məbləği müəyyən edilir. Yəni fermerin sahədən gözlədiyi məhsuldarlıqla real olaraq əldə edilən məhsuldarlıq arasında fərq dəqiqləşdirilir. Zərərə görə sığorta ödənişləri fermerlər tam məhsulu biçdikdən sonra ödənilir.

Hazırda Aqrar Sığorta Fondu 43 növ bitki və məhsulu sığorta edir. Azərbaycanda dövlət dəstəyi ilə tətbiq edilən aqrar sığorta mexanizmi əkin sahələrini çoxsaylı risklərdən, o cümlədən təbiət hadisələrindən - dolu, fırtına, qasırğa, sel və ya subasma, leysan, ildırım, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları və sair hallardan sığortalayır. Fonddan verilən məlumata görə, ilin əvvəlindən bitkiçilik üzrə sığorta hadisələri ilə bağlı daxil olmuş 599 müraciət əsasında 4500-ə yaxın təsərrüfatda təxminən 70000 hektar əkin sahəsinə baxış keçirilib.

Baş verən sığorta hadisələri ilə tanış olmaq, hadisələrin araşdırılması və əkin sahələrinə dəyən zərəri müəyyən etmək məqsədilə fondun rəhbərliyi və mütəxəssisləri, eləcə də müstəqil aqrar sığorta ekspertləri zərər dəymiş əkin sahələrində olaraq fermerlərlə görüşlər keçirib, onların müraciətlərini dinləyiblər.

Beləliklə, aqrar sığorta fermerlərə dövlət tərəfindən verilən mühüm dəstəklərdən biridir. Sığorta olunan kənd təsərrüfatı sahələri dövlət təminatına alındığı üçün fermerləri baş verə biləcək təbii fəlakətlərdən və digər ziyanlardan qoruyur. Bu da onları risksiz məhsul istehsalına təşviq edir. Daha çox məhsul istehsalı isə ərzaq təhlükəsizliyinə verilən əsaslı təminatdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

# Məktublar: problemlər, rəylər, təkliflər...



## Mənə göstərilən diqqətdən razıyam

**30 illik işğaldan sonra doğma yurdumuz olan Qarabağ düşməndən azad edildi. Sevinirəm ki, xalqımıza bu sevinci yaşadanlar arasında mən də varam.**

Torpaqlarımızın bütövlüyü uğrunda gedən döyüşlərdə mən də iştirak etmişəm. Döyüşdə yaralandığıma görə 2-ci qrup əliləm. Lakin bu, məni qətiyyən narahat etmir. Dövlətimiz mənə və mənim kimi minlərlə müharibə əlilinə qayğıkeşliklə yanaşır. Demək olar ki, bütün imtiyazlardan istifadə edirəm.

Xeyli vaxt idi ki, mənzil problemi yaşayırdım. Bu yaxınlarda yaşayış sahəsinə ehtiyacı olan müharibə əlili kimi Qazax Rayon İcra Hakimiyyətinə müraciət etdim. Müraciətimə diqqətlə yanaşdılar. Məni mənzil növbəsinə götürdülər.

Hörmətli redaksiya! Xahiş edirəm mənim mənzil problemimi qaydaya salan əlaqədar təşkilatlara minnətdarlığımı çatdırasınız.

***Şahlar SÜLEYMANOV,***
***Qazax rayonu Ağköynək kənd sakini,***
***II qrup Qarabağ müharibəsi əlili***

## İkiqat savab



**Mən Abşeron rayonunun Saray qəsəbəsində yaşayıram. 44 günlük Vətən müharibəsində bütün vətənsevərlər kimi, oğlum Azər Salmanov da cəbhəyə yollandı. Qisməti şəhidlik imiş.**

Oğlumla bərabər bu gün Saray Şəhidlər xiyabanında neçə oğul uyuyur. Düzü, ilk günlər fikir verməmişdik ki, xiyabana gedən yol bərbaddır. Sonra fikir verdik və problemin həlli üçün qəsəbədəki rəhbərlərə müraciət etdik. Lakin xeyri olmurdu.

Rayon rəhbərliyinin səyyar qəbulunda qəsəbənin şəhid valideynləri adından məsələni yenidən qaldırdıq. Rayon icra hakimiyyətinin rəhbərliyi bizimlə birgə xiyabana gəldi. Vəziyyətlə yerində tanış olan rayon rəhbərliyi əlaqədar təşkilatlara tapşırıq verdi.

Şəhid ailələri bu gün xiyabana təmirli, rahat yolla gedib-gəlir. Övladlarımız bu torpağın azadlığı uğrunda şəhid olublar. Onların son mənzillərinin yolu da abad olmalıdır. Həm də yol çəkmək savabdır. Həmin yol Şəhidlər xiyabanına gedirsə, bu, ikiqat savabdır.

***Vəfadar SALMANOV,***
***şəhid atası***
*Abşeron rayonu*

## Şəhid ailələri və qazilər dövlətin himayəsi altındadır

**Vətənin hər qarışı ata-babalarımızın bizə əmanətidir. Onun yolunda candan belə keçmək hər birimizin borcudur.**





Özüm Qubanın Alpan kəndində doğulmuşam. Uşaqlıqdan kəndimizin hər daşını, kəsəyini, yaşıl çəmənlərini sevərək böyümüşəm. Qarabağ ermənilər tərəfindən işğal ediləndə 10 yaşım vardı. Kəndimizin uşaqları ilə söz verdik ki, böyüyəndə düşməndən intiqamımızı almalıyıq. Elə buna görə hərbçi olmağa qərar verdim. Əsgəri xidmətdən sonra ordu sıralarında qalaraq vətənə xidmətə başladım. Sağlam bədənli kəndli balası olduğuma görə məni xüsusi təyinatlılara qəbul etdilər.

Baş gizir rütbəsini aldığıma görə dostlarım məni təbrik edəndə bildirdim ki, kaş düşməndən intiqamımı da alardım. Qisas günü yetişdi. 44 günlük Vətən müharibəsi başlayan andan ön sırada oldum. Kəndbəkənd, şəhərbəşəhər torpaqlarımızı düşməndən geri aldıq. "Vətən uğrunda", "Şücaətə görə", Cəbrayılın, Xocavəndin, Kəlbəcərin və Şuşanın azad edilməsinə görə medalları ilə təltif edildim. Hazırda III qrup müharibə əliliyəm.

Dövlətimizin qazi və şəhid ailələrinə diqqət və qayğıkeşliyi göz qabağındadır. Alpan kəndinin 20 şəhidi var. 17 nəfər Birinci Qarabağ savaşında şəhidliyə yüksəlib. 44 günlük Vətən müharibəsində isə kəndimiz 3 şəhid verib. Onlar kapitan Aqil Məlikov, gizirlər Orxan Balayev və Mehdi Murtuzovdur. İşimlə bağlı başqa yerdə yaşasam da, çalışıram hər həftənin sonunda Alpana gedim, şəhidlərimizi yad edim. Kəndimizin girəcəyində şəhidlərə möhtəşəm abidə də ucaldılıb.

Alpandan kənarda yaşayan qazilərlə vaxtaşırı görüşür, fikir mübadiləsi aparırıq. Kəndimizin problemlərini birlikdə həll etməyə çalışırıq. Bu sahədə dövlət qurumları bizə yardımçı olur. Vətən bizdən heç nə əsirgəməyib. Biz də ona övlad borcumuzu qaytarmalıyıq.

***Rəşad NOVRUZOV,***
***Quba rayonu Alpan kənd sakini, III qrup Vətən müharibəsi əlili***

## Qəhrəman generalın adını daşıyan küçənin sakini olduğumuz üçün qürur duyuruq

**44 günlük Vətən müharibəsi 30 illik Qarabağ həsrətimizə son qoydu. Müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında düşmənə qalib gəldi.**

Həmin döyüşlərdə sumqayıtlılar da şücaət göstərmiş, qələbənin təminatında öz sözlərini demişlər. Belə oğullardan biri də şəhid general-mayor Polad Həşimovdur. Polad Həşimov 2020-ci il iyulun 14-də Tovuz istiqamətində gedən şiddətli döyüşlər zamanı Ermənistan silahlı qüvvələrinin hücum cəhdinin qarşısını alarkən qəhrəmancasına şəhid olub.

Sumqayıtda yaşadığımız küçəyə şəhid generalın adının verildiyini eşidəndə sevindik. İnsan qürur duyur ki, onun yaşadığı küçə belə bir qəhrəmanın adını daşıyır. Küçəmiz şəhərin mərkəzində yerləşdiyindən əlaqədar təşkilatlar onun səliqə-sahmanına diqqətlə yanaşır.

Bu yaxınlarda axşam çağlarında küçədə bir hadisənin şahidi oldum. Bir gənc ailə şəhər bulvarından geri qayıdan zaman yanlarındakı 5-6 yaşlarında olan bir qızcığaz anasından "Bu Polad əmi deyil?!", - deyə soruşdu. Anası başı ilə təsdiqlədi. Qız küçənin başlanğıcına vurulan barelyefin qarşısında farağat dayanaraq himni oxumağa başladı. Yaxınlıqdan keçənlərin hamısı balaca qızcığaza qoşuldu. Çox qürurverici və kövrək bir səhnə alındı. İndi hər dəfə küçəmizlə addımlayanda qürur duyuram. Qürur duyuram ki, qəhrəman generalın adını daşıyan küçənin sakiniyəm.

***Ülviyyə QURBANOVA,***
***Sumqayıt şəhəri***






## AZƏRBAYCAN-a cavab verirlər

### Yaşayış məntəqəsi qazlaşdırıldıqdan sonra tikilən evlərə təbii qaz vətəndaşların hesabına çəkilir

**"Azəriqaz" İstehsalat Birliyinə ünvanladığınız 26.07.2022-ci il tarixli məktubda qəzetinizin 20 iyul 2022-ci il tarixli nömrəsində dərc olunmuş "Azəriqaz"dan deyirlər ki, kəndə qazı öz vəsaitinizlə çəkin" başlıqlı yazı ilə bağlı müraciətinizə tərəfimizdən baxılıb.**

Məlumat üçün bildiririk ki, yazıda qeyd olunan Goranboy rayonunun Qurbanzadə kəndi "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı" çərçivəsində 2011-ci il tarixində qazlaşdırılıb. Həmin vaxt kənddə yaşayış olan 81 ev dövlət vəsaiti hesabına, qazlaşdırılmadan sonra inşa olunan yeni yaşayış evlərindən 26-sı isə vətəndaşların öz vəsaitləri hesabına qazlaşdırılaraq təbii qazla təmin olunub.

Nəzərinizə çatdırırıq ki, bu gün tərəfimizdən aparılan qazlaşdırma işləri SOCAR-ın daxili imkanları hesabına həyata keçirilir. Qazlaşma ilə bağlı ayrılan maliyyə isə əsasən təbii qaz almayan yaşayış məntəqələrinin qazlaşdırılmasına yönəldilir. Təbii qazla təmin olunan kənd və qəsəbələrin, eləcə də yazıda adı qeyd olunan kəndin 9 evdən ibarət genişlənən hissəsinin qazlaşdırılması fərdi qaydada vətəndaşların öz vəsaitləri hesabına bu sahədə xüsusi lisenziyası olan podratçı təşkilatlar tərəfindən və ya gələcəkdə maliyyə vəsaiti ayrılarsa, İB tərəfindən həyata keçirilə bilər.

*Hörmətlə,*

***Ruslan ƏLİYEV,***
***Baş direktor***

### "Problem mərhələli şəkildə həll olunacaq"

**Qəzetimizin 20 iyul 2022-ci il tarixli nömrəsində dərc edilmiş "Su və kanalizasiya problemimiz var" başlıqlı oxucu məktubu ilə əlaqədar "Azərsu" ASC redaksiyamıza məktub göndərmişdir. Məktubda yazılır:**

"Nəzərinizə çatdırırıq ki, Binəqədi rayonu Sulutəpə qəsəbəsi mərkəzləşmiş içməli və tullantı su şəbəkəsinə malik olmayan yaşayış sahəsidir. Qəsəbə ərazisində su təchizatı əsasən sakinlər tərəfindən texniki normalara uyğun olmayan xətlər vasitəsilə aparılır. Eyni zamanda formalaşan tullantı sularının kənarlaşdırılması sakinlər tərəfindən norma və qaydalara uyğun olmayaraq inşa edilmiş kanalizasiya xətləri və septik qurğular vasitəsilə, həmçinin açıq kanallarla həyata keçirilir.

"Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sifarişi ilə Binəqədi rayonunun yaşayış məntəqələrində, o cümlədən Sulutəpə qəsəbəsi ərazisində içməli və tullantı su şəbəkələrinin yaradılması ilə bağlı layihə sənədləri hazırlanmışdır. Layihələrin icrası mövcud sistemlərin imkanları, texniki vəziyyəti və digər amillər nəzərə alınaraq davam etdirilir.

Ötən müddətdə Ruslan Allahverdiyev küçəsinin bəzi hissələrində mərkəzləşdirilmiş içməli su şəbəkəsi yaradılmış və bu istiqamətdə işlər davam etdirilir. Eyni zamanda qəsəbənin perspektiv layihəsinə uyğun olaraq ilkin mərhələdə küçə boyu əsas daşıyıcı kanalizasiya kollektorunun tikinti-quraşdırma işlərinin icrasına başlanılmışdır.

Bunları nəzərə alaraq Sulutəpə qəsəbəsinin digər yaşayış sahələrində, o cümlədən müraciətdə qeyd olunan ünvanda içməli və tullantı su şəbəkəsinin yaradılması "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin tədbirlər planına uyğun mərhələlərlə həyata keçiriləcəkdir".

## Sevincimiz hədsizdir

**Ölkəmizin hər yerində olduğu kimi, Gəncədə də aparılan abadlıq və quruculuq işləri şəhərin simasını başdan-başa dəyişmişdir. Salınan park və xiyabanlar, istirahət məkanları gələn qonaqlarla yanaşı, sakinlərin də rahatlığını təmin edir.**

Xüsusilə uzun illərdən bəri abadlıq və yenidənqurmaya ehtiyac olan mikrorayonlar indi tamamilə yeni görkəm almışdır. Elə bizim yaşadığımız I mikrorayonda da son vaxtlar xeyli abadlıq işləri görülmüşdür. Qeyd edim ki, minlərlə sakinin yaşadığı I mikrorayona ilk sakinlər 1972-ci ildə köçmüşlər. Əvvəl iki yaşayış binası istifadəyə verilmiş, sonra isə onların sayı 11-ə çatmışdır. Elə o zamandan da bu günlərə kimi nə binaların qarşısı və ətrafı, nə də dam örtükləri təmir edilirdi. Üstəlik, ərazidə yağış suyunun yaratdığı gölməçələr bir yana, asfalt örtüyü olmadığı üçün palçıq əlindən tərpənmək olmurdu. Nəhayət ki, bizim də üzümüz güldü. Mikrorayonda olan 11 binanın hamısının dam örtüyü yeniləndi, yollarımıza asfalt döşəndi, işıqlandırma bərpa edildi, uşaqlarımız üçün oyun meydançası yaradıldı. İntizarımız uzun çəksə də, nəticəsi çox ürəkaçan oldu.

Hörmətli redaksiya! Bütün bu rahatlığı, gözəlliyi biz sakinlərə bəxş edən və əməyi keçən hər kəsə minnətdarlığımızı bildiririk.

***Rəfiqə YUSİFZADƏ,***
***Gəncə şəhəri, I mikrorayon sakini***



## Yayın bu isti günlərində susuz qalmışıq




**Uzun illərdir ki, Goranboyun Dəliməmmədli şəhərinin yeni yaşayış məhəlləsində yaşayırıq. Son illər rayonun digər kənd və qəsəbələri kimi, Dəliməmmədli şəhəri də inkişaf edib, böyümüşdür.**

Şəhər statusu aldıqdan sonra burada infrastruktur tamamilə yenilənmiş, əhali üçün normal həyat şəraiti yaradılmışdır. Şəhərdə yeni məktəb, müasir səhiyyə ocağı istifadəyə verilmiş, küçələr asfaltlanmış, park və xiyabanlar yenidən qurulmuşdur. Dəliməmmədlidə yeni məhəllələr salındıqca şəhərin ərazisi böyüyür. Lakin bu zaman yeni problemlər də yaranır.

Məlum olduğu kimi, Goranboy sudan əziyyət çəkən rayonlar sırasındadır. Hər il yay mövsümü gələndə rayonun kənd və qəsəbələrində yaşayanlar nəinki əkin sahələrində, eləcə də məişətdə istifadə üçün su tapmırlar. Bizim məhəllə isə, ümumiyyətlə, bütün mövsümlərdə sudan əziyyət çəkir. Sakinlər maşınlarla su gətirməli olurlar. Yaxınlıqda artezian quyusunun olmasına baxmayaraq, oradan məhəlləyə su çəkən yoxdur.

Hörmətli redaksiya! Xahiş edirik, bu işdə məhəllə sakinlərinə kömək göstərəsiniz. Aidiyyəti təşkilatlara deyəsiz ki, bizi su ilə sınağa çəkməsinlər.

***Xalid BAĞIROV,***
***Goranboy rayonu Dəliməmmədli şəhərinin yeni yaşayış məhəlləsinin sakini***

## Dağ kəndinin dağ boyda dərdi - yol, işıq, qaz

**Xanagahlılar zəhmətsevər, doğma yurda bağlı insanlardır. Amma uzun müddətdir kəndin yolu pis vəziyyətdədir. Əhalinin ən çox istifadə etdiyi Lənkəran-Lerik yolunun 50-ci kilometrliyindən kəndə kimi uzanan yolun asfalt örtüyü tamam dağılıb.**

Amma problem təkcə bu deyil. Kəndə indiyəcən telefon da çəkilməyib. Üstəlik, keçən əsrin 60-70-ci illərinin yadigarı olan kənddaxili elektrik xətləri bərbad vəziyyətdədir. Elə bunun nəticəsidir ki, payız-qış aylarında əhalinin günlərlə işığı olmur. Olmayan həm də təbii qazdır. Odur ki, hazırda xanagahlılar üçün evlərini payızın, qışın soyuğunda isitməkdən böyük problem yoxdur.



Xanagahlılar bütün bu problemlərlə bağlı dövlətdən kömək istəyirlər. Deyirlər ki, əgər onları eşidən olsa, kəndin əvvəlki növraqlı günləri yenidən başlayar.

***Zəfər ORUCOĞLU,***
***Lerik rayonu***

## Bir kilometr yola çınqıl tökən tapılmır

**Hörmətli redaksiya!**

Biz - Hökməli qəsəbəsi Natəvan küçəsində yaşayan bir qrup sakin məcburiyyət qarşısında qalıb sizə müraciət etmək qərarına gəldik. Səbəb də budur ki, biz qəsəbənin AZELKO MMC-nin yaxınlığından keçən yolla Qobu yolunu birləşdirən yolun yaxınlığında yaşayırıq. Bu ərazi isə bərbad vəziyyətdədir, xüsusən də yollar. Yağış yağanda palçıq küçələrdən nəinki maşınla, heç piyada da keçmək mümkün deyil. Çirkli suların axıdılması üçün hətta adi kanal belə qazılmayıb. Bəzi sakinlər çirkli suları birbaşa yola axıdırlar ki, bu da müxtəlif yoluxucu xəstəliklərin yayılmasına səbəb olur. Uşaqlar məktəbə getməkdə də çətinlik çəkirlər. Hətta yolsuzluq üzündən təcili yardım maşınlarını saatlarla gözləməli oluruq. Əgər taksi xidmətindən istifadə etməli olsaq, yolumuzu görən sürücülər bizə xidmət etməkdən imtina edirlər.

Hörmətli redaksiya!

Bütün bunlar barədə dəfələrlə Hökməli kənd bələdiyyəsinə, Abşeron Rayon İcra Hakimiyyətinə yazılı və şifahi müraciət etsək də, şikayətimiz baxılmamış qalıb. Ümidimiz hər yerdən kəsildiyi üçün sizdən acizanə xahiş edirik ki, cəmi bir kilometrlik yola çınqıl döşənməsi və yol kənarında çirkli suların axıdılması üçün adicə bir kanalın qazılmasında bizə kömək edib, səsimizi yuxarılara çatdırasınız.

Sizə böyük inam və hörmət hissi ilə Hökməli qəsəbəsi Natəvan küçəsinin sakinləri:

*Qurbanov Hüseyn İslam oğlu, Hüseynov Aydın Rəşid oğlu, Yunusova Vüsalə Əhməd qızı, Əhmədov Qara Babək oğlu, Axundov Ramiz Qardaşxan oğlu.*

***Cəmi 22 nəfər.***

# Azərbaycanın müdafiə naziri Türkiyəyə səfər edəcək

## Azərbaycan-Türkiyə hərbi əməkdaşlığının gücləndirilməsi xalqlarımız arasındakı qardaşlığı möhkəmləndirir




Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən, müdafiə naziri general-polkovnik Zakir Həsənov Zəfər bayramının 100-cü ildönümü münasibətilə keçiriləcək silsilə tədbirlərdə iştirak etmək üçün avqustun 30-da qardaş Türkiyə Respublikasına işgüzar səfər edəcək.

Bu barədə AZƏRTAC-a Müdafiə Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib.

# Müdafiə Nazirliyi türk xalqını Zəfər bayramının 100 illiyi münasibətilə təbrik edib




Müdafiə Nazirliyi qardaş Türkiyənin Zəfər bayramının 100 illiyi münasibətilə təbrik edib. Nazirliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, təbrikdə deyilir:

"Bu il avqustun 30-da Türkiyənin İstiqlal savaşındakı əzm, qətiyyət, dözümlülük, şücaət, rəşadət, qəhrəmanlıq və vətən sevgisi nəticəsində əldə edilmiş şanlı Qələbəsinin təcəssümü olan Zəfər bayramının 100-cü ildönümünü qardaş Türkiyə və Azərbaycan xalqları hədsiz qürur hissi ilə təntənəli şəkildə qeyd edəcəklər.

Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci il mayın 28-də müstəqilliyini elan etməsi ilə başlayan Türkiyə-Azərbaycan münasibətləri Ulu Öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" və Ümummilli Lider Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsi ilə bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində də yüksələn xətt üzrə inkişaf etdirilməkdədir.

Danılmaz həqiqətdir ki, qardaş ölkələrimiz arasında münasibətlərin bugünkü səviyyəsinə çatmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəsna rolları vardır.

Azərbaycanın etibarlı müttəfiqi olan Türkiyə ilə münasibətlərin möhkəmləndirilib daha da genişləndirilməsi Azərbaycan Respublikasının xarici siyasətinin mühüm tərkib hissəsidir. Ölkələrimiz arasındakı tarixi, dini və mədəni əlaqələr hərbi sahədə mövcud əməkdaşlığın inkişafına yeni imkanlar açır. Hərbi əməkdaşlığın gücləndirilməsi eyni zamanda xalqlarımız arasındakı qardaşlığı möhkəmləndirir. Qarşılıqlı etibar və qardaşlığa əsaslanan çoxtərəfli əlaqələrin daha da dərinləşdirilməsi məqsədilə ölkələrimiz bütün beynəlxalq təşkilatlar çərçivəsində iki ölkənin və regionun rifahı naminə yaxından əməkdaşlıq edir. Bu münasibətlərimizin bundan sonra da davam etdirilməsi və gələcək nəsillərə ötürülməsi olduqca vacibdir.

Vətən müharibəsi Azərbaycan-Türkiyə əlaqələrini daha da möhkəmləndirdi. 2020-ci il dekabrın 10-da keçirilən Zəfər paradında Azərbaycan və Türkiyə əsgərləri çiyin-çiyinə Azadlıq meydanından keçdilər. Azərbaycan xalqı küçələrə axışdı və böyük sevinc hissi ilə Azərbaycan və Türkiyə əsgərlərini salamladı. Həmin tarixi gündə Azərbaycanın bütün şəhərləri Azərbaycan və Türkiyə bayraqları ilə bəzədilmişdi.

Hazırda Azərbaycan-Türkiyə əlaqələri Şuşa Bəyannaməsinə əsasən müttəfiqlik münasibətlərinə söykənir və bunun tərkib hissəsi kimi ordu quruculuğu sahəsində ardıcıl tədbirlər görülür. Ölkələrimiz arasındakı qarşılıqlı hərbi əməkdaşlıq birliyimizi daha da möhkəmləndirir. Azərbaycan-Türkiyə qardaşlıq münasibətləri regionda əmin-amanlığın və sabitliyin qorunmasına töhfə verməkdədir.

Eyni soy-kökə, dilə, dinə, mədəniyyətə malik Azərbaycan və Türkiyə arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri tarixboyu mövcud olub və olacaqdır.

Bu əlaqələr getdikcə daha da inkişaf edəcək, möhkəmlənəcək, ölkələrimiz daha böyük zəfərlər qazanacaq.

1922-ci il avqustun 30-da milli azadlıq mücadiləsinə qalxan mətanətli Türkiyə Ordusu böyük sərkərdə, görkəmli dövlət xadimi Mustafa Kamal Atatürkün komandanlığı altında Qurtuluş savaşının taleyini və Türkiyənin gələcək müqəddəratını həll edəcək zəfər qazanmışdır. Türkiyə xalqının yaddaşına "Bir millətin azadlıq günü" kimi həkk olunan 30 Avqust tarixi hər bir türkün qürur mənbəyi, iftixar yeridir.

Müstəqillik uğrunda döyüşlərdə türk əsgərinin yenilməzliyini, türk xalqının rəşadətini düşmənlər də öz xatirələrində etiraf ediblər. İstiqlal savaşında türk millətinin göstərdiyi şücaət türk tarixinə qızıl hərflərlə yazılmış, əfsanələr yaratmışdır. Bu savaşın qəhrəmanlarının yaratdığı obraz, onların azadlıq və dövlətçilik arzuları, "Bir millət, iki dövlət" - Azərbaycan və Türkiyənin timsalında gerçəkliyə çevrilib.

Azərbaycan Ordusunun rəhbərliyi və şəxsi heyəti Türkiyə Silahlı Qüvvələrinin rəhbərliyi və şəxsi heyətini Zəfər bayramının 100-cü ildönümü münasibətilə təbrik edir, dövlətçilik və azadlıq uğrunda adını tarixə qızıl hərflərlə yazmış şəhidlərimizin müqəddəs xatirəsini dərin ehtiramla anır".

# *ANAMA:* "Ötən həftə işğaldan azad edilmiş ərazilərdə piyada əleyhinə 240 mina aşkarlanaraq zərərsizləşdirilib"

Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) işğaldan azad edilmiş ərazilərdə icra olunan minatəmizləmə əməliyyatları barədə həftəlik məlumatı açıqlayıb.




ANAMA-dan AZƏRTAC-a bildiriblər ki, avqustun 22-dən 27-dək Tərtər, Ağdam, Şuşa, Xocavənd, Füzuli, Qubadlı, Cəbrayıl və Zəngilan rayonlarının ərazilərində aparılmış minatəmizləmə əməliyyatları zamanı piyada əleyhinə 240, tank əleyhinə 69 mina və 81 ədəd partlamamış hərbi sursat aşkarlanaraq zərərsizləşdirilib. Həftə ərzində 731 hektar ərazi mina və partlamamış hərbi sursatdan təmizlənib.








# Türkün zəfər tarixi

Bu gün türk tarixinin ən şərəfli səhifələrindən biri - Türkiyənin Zəfər bayramıdır. 1922-ci ilin bu günü Türkiyə Ordusu Mustafa Kamal Paşanın komandanlığı altında Qurtuluş savaşının taleyini həll edərək möhtəşəm bir zəfər qazanıb. Bu qələbə ilə ölkənin cənub-qərbini yunan işğalından azad edib.

Birinci Dünya müharibəsində Almanıyanın məğlubiyyəti vaxtilə üç qitədə geniş ərazilərə malik olan Osmanlı İmperatorluğu üçün faciəli sonluqla nəticələndi. Hakimiyyətdə Ənvər-Tələt-Camal üçlüyünü əvəz etmiş Ə.İzzət paşa hökuməti 1918-ci il oktyabrın 30-da Mondrosda (Mudros) Antanta dövlətləri ilə barışıq imzalamağa məcbur oldu. Barışığın şərtlərinə görə, məğlub tərəf ordunu buraxmalı, hərbi gəmilərini, dəmir yollarını, poçt, teleqraf vasitələrini Antantaya təhvil verməli, bütün ərəb torpaqlarından qoşunlarını çıxarmalı idi...

1919-cu ilin əvvəlində ingilispərəst "Hürriyyət və İtilaf" partiyasının qalib gəlməsinin nəticəsi olaraq sultan VI Məhmət Vahidəddinin kürəkəni Fərid paşanı sədr-əzəm təyin etdi. Parlament sülh müqaviləsi imzalananadək buraxıldı. Tezliklə Antantanın hərbi donanması boğazları işğal etdi. İngilislər Mosulu və İskəndərunu (sonralar İskəndərunun işğalını fransızlar həyata keçirdilər); fransızlar Suriyanın şimalında geniş sərhəd zolağını, italyanlar isə cənub-qərbi Anadolunu və Konyaya qədər olan əraziləri işğal etdilər. 1919-cu il mayın 15-də isə Antantanın razılığı ilə yunan qoşunları İzmirə daxil oldular. İzmirin işğalı ilə Qərbi Anadoluda Sami bəyin başçılığı altında Ayvalıq, Kazım Özalpın başçılığı ilə Berqama və Soma, Yürük Əli Əfəndinin rəhbərliyi ilə Aydın və Nazilli cəbhələri yaradıldı. Bu qüvvələrin yaranması sonralar "Kuvayi Milliyə"nin (Milli qüvvələrin) formalaşmasında böyük rol oynadı.

Belə bir zamanda Osmanlı ordusunda sıravi zabitdən generaladək hərb yolu keçmiş Mustafa Kamal Paşa vətənin bu ağır günlərində Türkiyədə başlayan azadlıq hərəkatının öndəri oldu.

1919-cu il mayın 19-da İstanbul hökumətinin təyinatı ilə 9-cu ordunun ali baş komandanı kimi Samsuna gəlmiş M.Kamal bir daha geri qayıtmayaraq Anadoluda Milli Qurtuluş savaşının təşkilinə başladı. Bu zaman artıq Anadoluda müxtəlif cəmiyyətlər (Şərqi Frakiyanın Müdafiəsinin Osmanlı Cəmiyyəti, Şərqi Anadolunun Hüquqlarının Müdafiəsi Cəmiyyəti və s.) fəaliyyət göstərirdi. Bunların arasında təslimçi ruhlu cəmiyyətlər də var idi. Ona görə də M.Kamal ilk növbədə Amasiyada cəbhə komandirlərinin gizli müşavirəsini keçirməyi qərara aldı. Müşavirədə qəbul edilən və bütün hərbi və mülki obyektlərə göndərilən məxfi təlimatda vətənin bütövlüyünün təhlükə altında olması və mübarizənin təşkili üçün tezliklə Sivasda milli konqresin keçirilməsinin zəruriliyi vurğulanırdı. İlk hazırlıq konqresi 1919-cu ilin 23 iyulu - 7 avqustunda Ərzurumda toplandı. Bitlis, Ərzurum, Sivas və Trabzon vilayətlərindən toplanmış 54 nümayəndənin iştirak etdiyi Şərq Vilayətlərinin Hüquqlarının Müdafiəsi Cəmiyyətinin konqresi ölkənin parçalanmasının qəbuledilməz olduğunu özündə əks etdirən manifest və qətnamə qəbul etməklə yanaşı, başda M.Kamal olmaqla 9 nəfərdən ibarət Heyəti-Təmsiliyyəni seçdi. Lakin Heyəti-Təmsiliyyə Sivas konqresinə kimi bircə dəfə də toplanmadı. Buna baxmayaraq Ərzurum konqresi Sivasda keçiriləcək növbəti toplantının təşkilində və keçirilməsində böyük rol oynadı.

1920-ci il yanvarın 12-də İstanbulda osmanlı parlamenti açıldı. Yanvarın 28-də parlament "Misaki-milli" (Milli and) qəbul etdi. O, Mondros barışığının imzalandığı anda mövcud olan sərhədlər daxilində ölkənin müstəqilliyini və bütövlüyünü, Türkiyənin maraqlı dövlətlərlə boğazlar haqqında saziş imzalamağa hazır olduğunu bəyan edirdi. Parlament özünü "doğrultmadığından" sultan onu buraxmaq və repressiyalara əl atmaq qərarına gəldi. 1920-ci il martın 16-da sultanın razılığı ilə ingilis qoşunları İstanbulu işğal etdilər. Tezliklə İstanbul və onun ətraf rayonlarında ingilis, fransız, italyan, yunan və amerikanlılardan ibarət işğal qoşunlarının sayı 60 minə çatdı. Paytaxtda hərbi vəziyyət elan edildi. Parlament buraxıldı, dövlət idarələri işğalçıların nəzarəti altına keçdi. Müdaxiləçilərin təkidi ilə sədr-əzəm vəzifəsinə yenidən ingilispərəst Fərid paşa gətirildi. Şeyxülislam Anadolu hərəkatını qiyam, M.Kamalı isə cani elan etdi və onun ölümü haqqında fitva verdi.

Rəsmi İstanbulun təslimçilik mövqeyi Heyəti-Təmsiliyyəni qəti qərar qəbul etməyə vadar etdi. Öncə müvəqqəti hökumət funksiyalarını öz üzərinə götürdü. Daha sonra 1920-ci ilin martında Ankarada Türkiyə Böyük Millət Məclisi (TBMM) adlandırılan yeni parlament çağırılması haqqında qərar qəbul edildi.

23 aprel 1920-ci ildə Ankarada keçirilən birinci TBMM-ə toplanan deputatların 233-ü yeni seçilmişdilər. 105-i isə nümayəndələr palatasının qovulmasından sonra İstanbuldan gəlmişdilər. Türk xalqının bütün təbəqələrinin nümayəndələrindən ibarət olan bu məclisdə milli azlıqların da nümayəndələri iştirak edirdilər. M.Kamal böyük səs çoxluğu ilə məclisə sədr seçildi. TBMM özünü ölkənin yeganə qanuni hakimiyyəti elan etdi. 1920-ci il mayın 3-də TBMM M.Kamalın başçılığı ilə 11 nəfərdən ibarət hökumət seçdi. İcra funksiyaları bu hökumətə həvalə edildi.

Ankarada baş verən bu hadisələr sultan hökumətini və əcnəbi müdaxiləçiləri bərk narahat edirdi. Sultan hərəkatı beşiyində boğmaq üçün Ankaraya "Xilafət ordusunu" göndərdi. Ordu partizan dəstələri tərəfindən darmadağın edildi. Sultan hökuməti tərəfindən hərəkata qarşı təhrik edilən kürd qiyamları da yerlərdə tezliklə yatırıldı. Yaranmış vəziyyətdə Antanta dövlətləri Ankaraya qarşı açıq hərbi müdaxiləyə başladılar. Onlar canlı qüvvədə itkiləri azaltmaq məqsədilə Anadolu hərəkatına qarşı Yunanıstandan istifadə etdilər. Anadolunun "bölgüsündə" geniş ərazilər əldə edəcəyinə dair vədlər almış Yunanıstan 1920-ci ilin iyununda öz qoşunlarına İzmirdən hücuma keçmək əmri verdi. Qısa bir zamanda yunan qoşunları Balıkəsir və Bursanı, Şərqi Frakiya və Ədirnəni də işğal etdilər. Yunanlar qarşılarına çıxan bütün yaşayış məskənlərini xarabazara çevirərək Anadolunun içərilərinə doğru irəliləyirdilər.

Müttəfiqlər bu uğurlarını tez bir zamanda qanuniləşdirmək məqsədilə qalib dövlətlərlə Osmanlı dövləti arasında yekun sülh müqaviləsinin imzalanması üçün sultan hökumətinin nümayəndələrini Paris yaxınlığındakı Sevr şəhərinə dəvət etdilər. Burada 1920-ci ilin avqustun 10-da bir tərəfdən əsas müttəfiq dövlətləri (Böyük Britaniya, Fransa, İtaliya, Yaponiya, hətta daşnak Ermənistanı, Yunanıstan və s.), digər tərəfdən Türkiyə arasında sülh müqaviləsi imzalandı. Versal sistemi müqavilələrindən olan, 13 hissə və 433 bənddən ibarət müqavilənin şərtlərinə görə, Şərqi Frakiya, Ədirnə və İzmir Yunanıstana, Mosul İngiltərəyə, İsgəndərun və Suriya sərhədi boyunca geniş zolaq Fransaya verilir, boğazlar beynəlxalq idarənin nəzarətinə keçir, İstanbul şəhəri isə müqaviləni loyal şəkildə yerinə yetirəcəyi təqdirdə Türkiyənin tərkibində saxlanılırdı. Anadolunun şərqində Türkiyə ilə daşnak Ermənistanının, habelə ayrılacaq kürd dövlətinin sərhədləri müvafiq olaraq ABŞ və ingilis-fransız-italyan xüsusi komissiyaları tərəfiindən müəyyənləşdirilməli idi. Anadolunun qalan hissəsi, habelə Osmanlı imperatorluğunun tərkibində olmuş ərazilər Antanta dövlətlərinin təsir dairələrinə daxil edilirdi. Türkiyə Suriya, İraq, Fələstin və "müstəqil" Hicaz krallığını mandat ölkə kimi, Misir üzərində ingilis, Sudan üzərində Misir-İngiltərə kondominiumunu, Tunis, Mərakeş üzərində fransız protektoratlığını tanıyırdı. Türkiyənin tərkibində əməli olaraq Ankara ilə Qara dəniz arasında yerləşən kiçik ərazi zolağı qalırdı. Müqavilənin digər şərtlərinə görə, kapitulyasiya rejimi saxlanılmaqla, ölkədə Antanta dövlətlərinin maliyyə nəzarəti yaradılırdı.

Belə bir dönəmdə türk milləti Mustafa Kamal Paşanın rəhbərliyi ilə Qurtuluş savaşına qalxdı. Xalq İstanbuldakı Sultan hakimiyyətinin imzaladığı təslimçi sazişi etirazla qarşıladı, Ankarada toplanan Türkiyə Böyük Millət Məclisi onu təsdiqləməkdən imtina etdi.

1921-ci ildə qalibiyyətlə başa çatan Sakarya savaşı türk ordusunun bu əzmini nümayiş etdirdi. 1922-ci ilin avqustundakı "Böyük Taarruz" ("Böyük Hücum") zəfərinin təməli də Sakarya savaşında qoyuldu.

1922-ci il avqustun 26-da sübh tezdən türk qoşunları baş komandan Mustafa Kamal Paşanın əmri ilə düşmən üzərinə hücuma keçdi. İki gün içində yunan ordusunun beş diviziyası darmadağın edildi. 30 avqustda artıq yunan qoşunları müdafiə qabiliyyətini itirdi.

Əskişəhər və Afyonu tamamilə nəzarətə götürən türk hərbi birlikləri yunan qoşunlarını bütün cəbhə boyunca qovaraq sentyabrın 6-7-də Balıkəsir və Aydını azad etdi, sentyabrın 9-da isə yunanların müdafiə xəttini yararaq İzmirə daxil oldu.

İki həftə içində türk ordusu 100 kilometr enində cəbhə boyunca 500-600 kilometr irəliləmiş, yunan qoşunlarının qalıqları Aralıq dənizinə çataraq gəmilərlə bölgəni tərk etməyə başlamışdılar. Bu zəfər naminə 13 min türk əsgər şəhid olmuşdu… 30 Avqust zəfəri türk xalqının və Türkiyənin tarixində yeni bir səhifə açdı. Bu zəfər sayəsində Sevr sazişi tarixin zibilliyinə atıldı. İrəlidə bütün vətən torpağında suverenliyi bərqərar etmək missiyası dururdu. Bir il sonra, 1923-cü il oktyabrın 29-da Mustafa Kamal Paşa Türkiyə Cümhuriyyətini elan etdi.

Zəfər bayramı ilk dəfə 1923-cü il avqustun 30-da Afyonqarahisar, Ankara və İzmirdə qeyd edildi. Rəsmi olaraq Zəfər bayramı 1936-cı ilin may ayında elan olundu.

Keçən əsrin 20-ci illərinin əvvəllərində türk dünyasının ulu öndərlərindən olan M.K.Atatürk yazmışdır: "Amerika, Avropa və bütün sivilizasiya dünyası bilməlidir ki, türk xalqı hər bir sivilizasiyalı və qabiliyyətli millət kimi, qeyd-şərtsiz azad və müstəqil yaşamağa qərar veribdir. Bu haqlı qərarı pozmağa yönələn hər bir qüvvə Türkiyənin əbədi düşməni kimi qalacaqdır. Bu barədə insaniyyət və sivilizasiya aləminin təmiz vicdanı, şübhəsiz Türkiyə ilə yekdildir". Türkiyə millətinin siyasi müstəqillik, siyasi varlıq uğrunda mübarizəsi, ümumiyyətlə, bəşər tarixinin ən şərəfli səhifələrindəndir.

Bu gün qardaş Türkiyə özünün inkişaf dövrünü yaşayır. Dünya siyasi masasında ciddi söz sahibidir. İqtisadi və hərbi qüdrəti ilə dünyanın böyük dövlətlərini belə təəccübləndirir.Türkiyə-Azərbaycan münasibətləri isə dünyada dostluğun və qardaşlığın rəmzinə çevrilib. Ulu Öndər Heydər Əliyevin dediyi kimi, "Bir millət, iki dövlət"ik. Uğurumuz da, sevincimiz də, kədərimiz də, düşmənlərimiz də birdir. Zəfər günün mübarək olsun, Böyük Türkiyə.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

*Təkrar*

# Azərbaycan Respublikası Mərkəzi Bankı

## bankın əməkdaşları üçün tibbi sığorta xidmətlərinin satın alınması üzrə tender elan edir

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq öz əməkdaşlarının tibbi sığortalanması üzrə açıq tender keçirir.

Tender proseduru 28 sentyabr 2022-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi 90) keçiriləcəkdir.

İddiaçı qismində qanunvericilikdə nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növünün aparılması üzrə rəsmi icazə almış sığorta şirkəti çıxış edə bilər.

Hesabat dövrünün sonuna iddiaçının məcmu kapitalı qanunvericiliyə müvafiq olaraq hesablanmış tələb olunan kapitalın məbləğindən az olmalıdır.

Tenderdə iştirak etmək üçün iddiaçı aşağıdakı sənədləri təqdim etməlidir:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyətini həyata keçirmək hüququ verən xüsusi razılığın (lisenziyanın) və könüllü tibbi sığorta növü üzrə müvafiq qaydada təsdiq olunmuş qaydaların surəti;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (Tender təklifi 11 noyabr 2022-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *iddiaçının son 1(bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tibbi sığorta fəaliyyəti sahəsində ən azı 3 (üç) il təcrübəsinin olması barədə məlumat;*
- *sığorta qanunvericiliyinə uyğun olaraq onunla əlaqəli şəxs olmayan və ya iddiaçı üzərində əhəmiyyətli nəzarəti həyata keçirməyən ən azı 2 (iki) korporativ müştəri tərəfindən verilən tövsiyə məktubu;*
- *tenderin əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumatlar.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını 27 sentyabr 2022-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 19 sentyabr 2022-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsinə təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderə buraxılmayacaqdır.

**İştirak haqqı 200 (iki yüz) manatdır.** Tenderdə iştirak haqqı Azərbaycan Respublikası Mərkəzi Bankının aşağıdakı hesabına köçürülməlidir:

**Azərbaycan Respublikasının Mərkəzi Bankı**
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesabı: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BIK NABZAZ2C**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**
**Xidmətin göstərilməsinə başlanma vaxtı: 27.11.2022-ci il.**
**Xidmətin göstərilməsi müddəti: 1 (bir) il müddətində.**
**Qiymətləndirmə amilləri: qiymət və texniki amillər.**

Tenderdə iştirak etmək istəyən sığortaçılar iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi 90 ünvanında yerləşən inzibati binasında Tender komissiyasının əlaqələndirici şəxsindən Azərbaycan dilində tərtib edilmiş tenderin əsas şərtlər toplusunu əldə edə bilərlər.

***Tender üzrə əlaqələndirici şəxs:***
***Elvin Şirdanov (Hüquq departamenti). Telefon: 493-11-22 (428)***
***Akif Əsgərov (İnzibati və satınalmalar departamenti)***
***Telefon: 493-11-22 (225)***

***Satınalmalar komissiyası***

*Təkrar*

# "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsində bərk məişət tullantılarının yükləmə-boşaltma məntəqəsi və çeşidləmə xəttinin tikinti-quraşdırma işlərinin satın alınması ilə əlaqədar *açıq tender elan edir*

Bakı şəhəri, Xəzər rayonu, Şüvəlan qəsəbəsində bərk məişət tullantılarının yükləmə-boşaltma məntəqəsi və çeşidləmə xəttinin tikinti-quraşdırma işlərinin satın alınması. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu "Təmiz Şəhər" ASC Bakı şəhəri, Xocalı prospekti, 55 ünvanında yerləşən ofisindən əldə edə bilərlər. Əlaqələndirici şəxs - Tural Qüdrətov, telefon (012) - 464 41 11.

**İştirak haqqı 1500 manat.**
**AZN hesabı**
**Benefisiarın adı: Dövlət Xəzinədarlığı Agentliyi**
**Hesab nömrəsi: AZ07CTRE00000000000004587901**
**SWIFT: CTREAZ22**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Müxbir hesabı: AZ41NABZ01360100000000003944**
**Xəzinə hesab-kitabın (XHK) nömrəsi: 4587901**
**Fond: 7 İqtisadi təsnifat kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);
- tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (Təminatın qüvvədəolma müddəti tender təklifinin qüvvədəolma müddətindən 30 bank günü çox olmalıdır);
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;
- iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;
- iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;
- iddiaçının ilkin qeydiyyat sənədlərinin və onlara edilmiş əlavə və düzəlişlərin notarial qaydada təsdiqlənmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə) və rekvizitləri;
- satınalma müqaviləsinin icrasını təmin etmək üçün zəruri təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması;

- iddiaçının son 3 (üç) il ərzində analoji müqavilələr üzrə iş təcrübəsini təsdiq edən sənədlər;

- texniki imkanlar barədə məlumat;
- icra edilmiş müqavilələrin surətləri;
- görülmüş işlərin təhvil-təslim aktları;
- tövsiyə məktubları;
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyətinin olması;
- müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin olmaması;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;
- müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olması;
- tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;
- müqavilə üzrə işlərin icrasına cəlb ediləcək subpodratçılar (konkret subpodratçının adı göstərilməklə) barədə satınalan təşkilatın müəyyən etdiyi digər sənədlər;
- iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərindən hansına aid olması ilə bağlı məlumat.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **21.09.2022 -ci il saat 16:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **29.09.2022-ci il saat 16:00-a** qədər Bakı şəhəri, Xocalı pr., 55, AZ1025 ünvanına təqdim etməlidirlər. Tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı **30.09.2022-ci il saat 16:00-da** Bakı şəhəri, Xocalı pr., 55, AZ1025 ünvanında otaq № 1-də (iclas otağı) aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankına məxsus stolüstü əskinas sayğaclarına və vakum presləyicilərə texniki qulluqla (servislə) bağlı xidmətin satın alınması ilə əlaqədar keçirilmiş kotirovka sorğusu üzrə Satınalmalar komissiyasının 17 avqust 2022-ci il tarixli qərarına əsasən, "HALAL-P" MMC qalib elan edilmişdir.

Qalib şirkətlə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Satınalmalar komissiyası***

# Ölkə ərazisində sabit hava şəraiti davam edəcək

Azərbaycanda avqustun 30-na gözlənilən hava proqnozu açıqlanıb. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Cənub küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 19-22°, gündüz 33-38° isti, Bakıda gecə 20-22°, gündüz 34-36° isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 761 millimetr civə sütunu, nisbi rütubət gecə 60-65, gündüz 25-30 faiz təşkil edəcək.




Abşeron çimərliklərində mülayim cənub küləyi əsəcək. Dəniz suyunun temperaturu şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 23-24°, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 25-26° isti olacağı gözlənilir.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 34-39° isti, dağlarda gecə 11-16°, gündüz 23-28° isti olacağı proqnozlaşdırılır.





# OXUCULARIN NƏZƏRİNƏ!

***"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*


# "Azərişıq" ASC ölkənin bütün regionlarında yenidənqurma işlərini davam etdirir

## Ağcabədi rayonunun kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur

Prezident İlham Əliyevin müvafiq tapşırıqlarına əsasən, "Azərişıq" ASC tərəfindən həyata keçirilən investisiya layihəsi çərçivəsində Ağcabədinin Cəfərbəyli və Ağabəyli kəndlərinin elektrik şəbəkəsi yenidən qurulur.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, yenidənqurma işləri çərçivəsində 1000-dən çox sakinin yaşadığı Cəfərbəyli kəndində 3 komplekt transformator məntəqəsi istismara veriləcək. Ümumilikdə 25 kilometrədək elektrik xətti yenilənəcək.

Ağcabədinin Ağabəyli kəndində də yenilənmə işləri davam etdirilir. 700-ə yaxın sakini olan Ağabəyli kəndində 3 ədəd komplekt transformator məntəqəsi quraşdırılacaq. 20 kilometrə qədər elektrik xətti dəyişdirilərək izoliyasiyalı naqillərlə əvəzlənəcək. Hər iki kənddə elektrik sayğacları yenisi ilə əvəz olunacaq.

Ağcabədinin Cəfərbəyli və Ağabəyli kəndləri ilə yanaşı, Mehrablı kəndində də işlər aparılır. Növbəti mərhələdə isə rayonun Şənlik və Qardolaq kəndlərinin də elektrik şəbəkəsi yenidən qurulacaq. Xatırladaq ki, investisiya layihəsi bütün regionlarda 100-dən çox kəndi əhatə edir.

# Avropanın enerji böhranı

## Azərbaycan Qərb ölkələrinin yeni qaz tədarükçüsüdür

Son vaxtlar Avropa bazarlarının Rusiya qazından asılılığının azaldılması ilə bağlı müxtəlif variantlar üzrərində iş aparılır. Avropa İttifaqının bəzi ölkələri hər an Rusiyadan təbii qaz idxalından imtina etməyə, prinsipcə, hazırdır. Amma başqaları üçün bu, idxalı əvəz etmək sahəsində ciddi məsələdir. Onlar uzunmüddətli perspektivdə hansı alternativ enerji mənbələrindən istifadə edə biləcəklərini aydınlaşdıra bilmirlər.



"Euronews" telekanalının xəbərinə görə, Aİ ölkələrinə qaz nəqlinin daha ətraflı təhlili göstərir ki, alternativlərin tapılması o qədər də çətin məsələ deyil.

Aİ yeni təbii qaz tədarükçüləri tapmaq üçün hər cür səy göstərir. Brüssel artıq ABŞ, Qətər, Norveç, Əlcəzair və İsraillə danışıqlar aparıb. Azərbaycan da "Qoca qitə"yə tədarükün 50 faiz artırılmasına razılıq verib. Qaz Türkiyə və Bolqarıstan ərazisindən boru kəməri ilə çatdırılacaq.

Qaz böhranı şəraitində Aİ ölkələri həmrəylik prinsipləri əsasında Avropa şəbəkəsi daxilində qaz mübadiləsinə və yenidən bölüşdürülməsinə dair sazişlər bağlayaraq bir-birinə dəstək ola bilərlər. Hələlik belə sazişlər azdır. Məsələn, Almaniya yalnız Danimarka və Avstriya ilə müqavilələr imzalayıb. Çox güman ki, Aİ ölkələrinin hər birinin hökuməti öz daxili bazarlarını qazla təmin etməli olacaq.

Bəzi Aİ ölkələri artıq Rusiya qazından asılılıqdan qurtulub. Məsələn, İtaliya Əlcəzair, Qətər və Azərbaycanla qaz tədarükünə dair müqavilələr bağlayıb. Nəticədə bu ölkədə Rusiya qazının idxalının payı artıq ümumi enerji tələbatının 21 faizinə düşüb. İspaniya və Portuqaliyanın mövqeyi daha yaxşıdır. Onlar Rusiyadan gələn qazdan böyük ölçüdə müstəqildirlər və hətta Aİ-nin digər ölkələrinə təbii qaz verirlər. İspaniya, Pireney yarımadasında yerləşən altı TMQ terminalı ilə Avropa şist qazı bazarında getdikcə daha mühüm rol oynayır. Fransa da qonşuları ilə ayaqlaşmağa çalışır: burada üç TMQ terminalı istifadəyə verilib. İndiyə qədər Fransa təbii qazının böyük hissəsini Şimal dənizinin dibi ilə Dunkerk boru kəməri ilə Norveçdən idxal edir. Danimarka və İsveç öz enerji ehtiyaclarını böyük ölçüdə təmin edirlər.

"British Petroleum" şirkətinin illik statistik qiymətləndirməsinə görə, kəşf edilmiş qaz ehtiyatlarının ən böyük hissəsi - 40 faizdən çoxu -Yaxın Şərq ölkələrinin payına düşür. Üstəlik, 2000-ci ildən 2020-ci ilə qədər regionda, əsasən Qətər və İranda yeni yataqların kəşfi hesabına ehtiyatlar 30 faiz artıb.

Ehtiyatlara görə ikinci yerdə ümumilikdə dünya təbii qaz ehtiyatlarının 30 faizdən çoxunu təşkil edən MDB ölkələri dayanır. Rusiyanın dünya bazarındakı payı 20 faizdən bir qədər çoxdur. Son 20 ildə Rusiya ərazisində təsdiqlənmiş qaz ehtiyatlarının həcmi 13 faiz artıb və hazırda 37,6 trilyon kubmetr təşkil edir. Bu, İranda (32,1 trilyon kubmetr) və Qətərdə (24,7 trilyon kubmetr) aşkar edilən ehtiyatlarla müqayisə oluna bilər. Hazırda kifayət qədər böyük qaz ehtiyatları ABŞ (12,6 trilyon kubmetr) və Türkmənistanda (13,6 trilyon kubmetr) da mövcuddur. Müqayisə üçün qeyd edək ki, Avropanın əsas qaz istehsalçısı Norveç (Aİ ölkəsi deyil) 1,5 trilyon kubmetr qaz ehtiyatına malikdir. Avropa İttifaqının ərazisində isə kəşf edilmiş ehtiyatlar cəmi 0,4 trilyon kubmetrdir və dünya həcminin 0,2 faizini təşkil edir.

Hazırkı səviyyədə hasilatın həcmini və təsdiq edilmiş ehtiyatları nəzərə alsaq, Yaxın Şərqdə yaxın 110 il, MDB ölkələrində isə 70 il üçün kifayət qədər qaz olacaq. Rusiyada və ya İranda hasilatın həcmi dəfələrlə artmasa, digər ölkələr ehtiyatlarını daha tez tükədəcəklər və bu, planet üzrə orta hesabla 48 il davam edəcək. "British Petroleum"un hesabatına görə, 2020-ci ildə dünyada 3853,7 milyard kubmetr qaz hasil edilib. Özü də ABŞ ən böyük istehsalçıdır (ümumi istehsalın 23,7 faizi). İkinci yerdə Rusiya (16,6 faiz), üçüncü yerdə İran (6,5 faiz), Çin (5 faiz) və Qətər (4,4 faiz) qərarlaşıb. Aİ ölkələrində ildə 50 milyard kubmetrdən az təbii qaz hasil edilir ki, bu da dünya hasilat səviyyəsinin təxminən 1,2 faizini təşkil edir.

Dünya istehlakının 21,8 faizi ABŞ-ın payına düşür. Beləliklə, bu ölkə təbii qazın ən böyük bazarıdır. İstehlakın 10 faizdən bir qədər çoxu Rusiyadadır. Bir qədər aşağı - 9,9 faiz - qaz istehlakı Aİ ölkələrinin payına düşür. Eyni zamanda 1,5 milyard nəfər əhaliyə malik və dünyanın ən böyük iqtisadiyyatlarından biri olan Çində dünya üzrə metan yanacağı istehlakı cəmi 8,6 faiz təşkil edir.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin rəhbərliyi və kollektivi fövqəladə hallar nazirinin müavini

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikası Dövlət Statistika Komitəsinin rəhbərliyi və kollektivi Azərbaycan Respublikası fövqəladə hallar nazirinin müavini general-leytenant

**NAZİM MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**

**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 6371**
**Sifariş 2448**
**Qiymət 40 qəpik**